RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 150 (9029) ÇƏRŞƏNBƏ, 20 iyul 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Avropanı Azərbaycandan, Azərbaycanı Avropadan təcrid etmək mümkün deyil

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Sabahınız xeyir. Yadımdadır, sonuncu görüşümüz beş il əvvəl olmuşdur.

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri **Devid MakAlister:**

- Həmin il İslam Həmrəyliyi Oyunları keçirilirdi.

→ 2

## Azərbaycan-Türkiyə birliyi və dostluğu bütün sınaqlardan şərəflə çıxıb



→ 2



## İlham Əliyevin qlobal təşəbbüsləri Avropa İttifaqının təhlükəsizliyinə etibarlı təminatdır

→ 5



## Qayıdışla başlanan Qurtuluş

### 32 il öncə Heydər Əliyev Azərbaycana qayıdaraq xilaskarlıq missiyasına başladı

1990-cı il iyulun 20-də Heydər Əliyevin Moskvadan Azərbaycana qayıdışı respublikamızda başlanan milli azadlıq mücadiləsinin tamamilə yeni keyfiyyət mərhələsinə yüksəlməsinin başlanğıcı oldu. Ulu Öndər bir vaxtlar inkişaf etdirdiyi, yüksəltdiyi, lakin sonrakı dövrdə qətiyyətsiz rəhbərlərin tənəzzülə uğratdıqları Azərbaycanın müstəqilliyi uğrunda tarixi missiyasını isə qədim yurdumuz Naxçıvandan başladı. Heydər Əliyevin iyulun 22-də Bakıdan Naxçıvana gəlişi həm də bu dahi şəxsiyyətin, görkəmli dövlət xadiminin yenidən böyük siyasətə qayıdışı ilə əlamətdar oldu.

→ 4

## Onlar dövlətin qüruru, dövlət isə onların dayağıdır

Azərbaycan Prezidenti son illər ərzində şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları ilə saysız görüşlər keçirmişdir.

Dövlət başçısı müharibədən əvvəlki bütün görüşlərdə qeyd edirdi ki, nəyin bahasına olursa-olsun öz torpağımızı qaytaracaq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz də əvvəlki illərdə şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq. Bu gün isə qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq.

→ 9

## Prezident fəaliyyətinin uğur hesabatı

### **İlham ƏLİYEV bəyan etdi:** Ölkəmiz davamlı inkişafdadır, Azərbaycan hər istiqamət üzrə irəliləyir, heç kim bizim iradəmizə təsir edə bilməz!

Uğurlu idarəçiliyi təmin edən əsas faktorlardan biri hakimiyyətin öz fəaliyyəti və hədəflədiyi məsələlər barədə ölkə ictimaiyyətinə məlumatların, hesabatların verilməsidir.

Bütün bunları öz idarəçilik konsepsiyasında əsas prinsiplərdən biri kimi müəyyən etmiş Prezident İlham Əliyev hər bir məsələdə xalqın məlumatlandırılmasını zəruri hesab edir. Dövlət başçısının sədrliyi ilə hər bir ilin və ya ilin müəyyən dövrünün yekunlarına, yaxud digər məsələlərə həsr olunan müşavirələrin keçirilməsi də bu istiqamətdə atılan addımlardan biridir. "Bizim bu müşavirəmiz də bir növ vətəndaşlara verilən hesabatdır. Eyni zamanda vətəndaşlar bilsinlər ki, biz hansı işləri görməyi planlaşdırırıq, onlardan da təkliflər gözləyirik" - deyə dövlət başçısı belə müşavirələrin birində deyib.

İyulun 15-də keçirilən bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev ötən dövrün siyasi, iqtisadi, sosial yekunları ilə bağlı məsələləri diqqətə çatdırdı. Dövlət başçısının toxunduğu, qeyd etdiyi hər bir məsələ göstərdi ki, Azərbaycan hakimiyyəti qarşıda dayanan bütün vəzifələri layiqincə yerinə yetirir, hər bir məsələdə dövlətin milli maraq və mənafeləri qətiyyətlə təmin edilir.

Bu baxımdan ötən yarım ilin siyasi və iqtisadi yekunları Prezident İlham Əliyevin növbəti hesabatı idi. Dövlət başçısı nitqinin əvvəlində bütün istiqamətlər üzrə vəzifələrin icra olunduğunu bəyan etdi: "İlin altı ayı bir daha onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyduğumuz vəzifələr icra edilir".

→ 4

## İlham Əliyev Böyük qayıdışı başlatdı

İllər idi ki, əllərimiz Tanrıya uzanıqlı qalmışdı. O torpaqlara qayıtmaq üçün Ulu Tanrıya dualar edirdik, yalvarırdıq... Hər il, hər bayram qurbanlar deyirdik. Hər əlamətdar gündə ürəyimizdə bir niyyətimiz olurdu: "Kaş gələn il bayramımızı Qarabağ torpaqlarında keçirə bilək..." O torpaqlarsa çox uzaq idi. Oralara gedib çıxmaq bir xəyal kimi görünürdü. Bununla yanaşı, bizim xəyal etdiklərimizi onun gerçəkləşdirə biləcəyinə inanırdıq. Yalnız o, Müzəffər Ali Baş Komandan İlham Əliyev vaxtın nə zaman yetişəcəyini, məqamın nə zaman gələcəyini dəqiq bilirdi...

27 sentyabr 2020-ci ildə səhər-səhər xalqın qarşısına çıxıb yumruğunu qəzəblə düyünləyib, vaxtın, zamanın yetişdiyini dedi...

Ona güvənən xalq bir olub arxasında durdu. "Dəmir Yumruğ"a döndü, düşmənə qəzəb püskürdü...

Ali Baş Komandan qurduğu ordu ilə düşmənin üstünə yeridi. Düşmənin zəhri çatladı. Bizdən aldıqlarını, bizim olanı bir-bir geri qaytardı... Gücü, qətiyyəti, dəmir iradəsi, dəmir məntiqi ilə İlham Əliyev düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi...

Ermənilərin 1993-cü ilin yağışlı, soyuq bir payız günündə üç tərəfdən mühasirəyə alıb, on minlərlə əhalisini Araza töküb işğal etdikləri Zəngilanı 27 il sonra 28 oktyabrda müzəffər ordusu ilə azad etdi... Geri qaytardı! Bir gün ailəsini götürüb birinci özü getdi, düşmənin viran qoyub, xarabazarlığa çevirdiyi Zəngilana. Biz bütün torpaqlarımıza yenidən həyat verəcəyik, quracağıq, yaradacağıq, abadlaşdıracağıq, bu torpaqları cənnətə döndərəcəyik, - dedi. Bu torpağın, bu vətənin sahibi olduğumuzu qurmaqla, yaratmaqla, yol çəkməklə, həyat verməklə dünyaya göstərmiş oldu. Zəngilan rayonunun viran qalmış Ağalı kəndinin bünövrəsini öz əlləri ilə qoydu.

Maraqlıdır, görəsən nədən Ağalıdan başlandı bu qayıdış? Zəfərdən sonra Böyük qayıdış üçün nədən Ağalı kəndi seçildi?

→ 7



## Bu köç Ağalıya gedir...



→ 7

## Yetərincə tibbi maska və spirt ehtiyatımız varmı?



Virusun yayılmasının qarşısının alınmasında müstəsna rol oynayan bu vasitələrin düzgün və həddində istifadəsi də çox önəmlidir. Azərbaycanda tibbi maska ilə bağlı maarifləndirmə işlərinin aparılmasına, keçirilən yoxlamalara, zamanında tətbiq olunan cəza tədbirlərinə baxmayaraq, hələ də qoruyucu vasitələrdən düzgün istifadə etməyənlər də var.

Birdəfəlik tibbi maskalardan təkrar istifadə etmək olmaz. İstifadə müddətinin iki saatdan artıq olmaması tövsiyə olunur.

→ 10

## Ermənilərin 83 faizi yaşayış səviyyəsindən narazıdırlar

### Ölkə dərin siyasi-iqtisadi böhran içindədir

Ermənistanda iqtisadiyyatın ifrat mərkəzləşdirilməsi, bütün resursların hakimiyyətdəki ailə ilə oliqarxların əlində cəmləşməsi, vergilərin qarətə çevrilməsi nəticəsində ağır bir situasiya yaranıb. Bundan xilas olmaq üçün sadə vətəndaşlar xaricə qaçmağa üstünlük verirlər. Aparılan sorğulardan məlum olub ki, əhalinin 83 faizi yaşayış səviyyəsindən narazıdır. Respondentlərin 20 faizi ölkəni tərk etmək istədiyini bildirib.

ABŞ-ın bu ölkədəki konsulluğundan bildirilib ki, Ermənistanı tərk etmək istəyən insanların sayı dəfələrlə artıb. Konsulluğa 2022-ci ildə Ermənistanı birdəfəlik tərk edib ABŞ-da yaşamaq istəyən 117 mindən çox vətəndaş müraciət edib. Belə bir vaxtda "4rd.am" portalında yer alan xəbərdə qeyd olunur ki, Rusiyada yaşayan ermənilərin sayında daha 668 min nəfər artım müşahidə olunub.

→ 5

## Plastik tullantılardan gələn təhlükədən qorunun

Plastik qablaşdırma tullantıları ətraf mühitin çirkləndirilməsinə də öz təsirini göstərir. 1960-cı illərdə bərk məişət tullantılarının tərkibində plastik tullantıların miqdarı 1 faizə qədər idisə, indi bu göstərici 12 faizdən çoxdur. Unutmayaq ki, plastik tullantılar təbiətdə yüz illər ərzində parçalanmır, miqdarı isə ilbəil artır. Araşdırmalar göstərir ki, bu tullantılar düzgün idarə olunmadığından ətraf mühiti çirkləndirir, kənd təsərrüfatı torpaqlarının dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir.

→ 10



# Avropanı Azərbaycandan, Azərbaycanı Avropadan təcrid etmək mümkün deyil

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Sabahınız xeyir. Yadımdadır, sonuncu görüşümüz beş il əvvəl olmuşdur.

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri **Devid MakAlister**:

- Həmin il İslam Həmrəyliyi Oyunları keçirilirdi.

**Prezident İlham Əliyev:** Bəli, 2017-ci il idi. Çox vaxt keçib. Uzun müddət idi ki, Avropa Parlamentindən nümayəndə heyəti gəlmirdi. Yadımdadır, sonuncu nümayəndə heyəti 2018-ci ildə gəlmişdi. Səmimi desək, mən Azərbaycana səfərinizi planlaşdırdığınızı eşidəndə, hətta bir az təəccübləndim. Ola bilsin, səbəb sizə məlumdur. Əməkdaşlığın inkişafı ilə bağlı geniş şəkildə müzakirə etdiyimiz görüş yadımdadır. Lakin, əfsuslar olsun ki, bu, baş tutmadı. Səbəb bizimlə yox, Avropa Parlamentinin bəzi üzvlərinin mövqeyi ilə bağlı idi. Biz həmin mövqeni tamamilə əsassız hesab edirik. Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam. Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir. Xüsusən də Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilmişdir. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil. Həmin qətnamə bu ilin mart ayında qəbul olunub. Yəni, müharibə bitəndən ilyarım sonrakı vaxta təsadüf edir.

Müharibə bitəndən sonra səfirliklərin nümayəndələri, siyasətçilər, Avropanın bəzi ölkələrinin parlament sədrləri, jurnalistlər tərəfindən çoxsaylı səfərlər olub. Onların hamısı Azərbaycanın mədəni irsinin tamamilə məhv edilməsinin şahidi olmuşlar. Onlar hər hansı erməni mədəni irsinin dağıdılmasını görmədilər. Əksinə, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur. Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerləyeksan ediblər.

Hazırda biz səfərlər təşkil edirik və Azərbaycanın hər bir vətəndaşı Şuşanı, Füzulini və Ağdamı ziyarət edə bilər. Hər kəs erməni vandalizminin, barbarlığının miqyasını görə bilər. Belə şəraitdə Azərbaycanı heç vaxt etmədiyimiz məsələlərdə ittiham edən Ermənistanın və ermənilərin ərazilərimizdə törətdiyinə göz yuman birtərəfli qətnamənin qəbul edilməsi tamamilə qəbulolunmazdır. Əfsuslar olsun, bu, baş verdi. Bilirəm ki, nümayəndə heyətinizin bir çox üzvləri həmin qətnamənin lehinə səs veriblər. Bu isə tamamilə əks-nəticə verən addımdır. Birincisi, bu, yalandır və uydurulmuş faktlara, böhtan və iftiralara əsaslanır. İkincisi, bu, o qədər böyük əhəmiyyət kəsb etmir. Çünki siz yəqin bilirsiniz ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yaxşı tarixi var və xüsusilə hazırda əlaqələr çox uğurla inkişaf edir.

Siz Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin dünənki səfəri haqqında yəqin məlumatlısınız. Bizim çox yaxşı müzakirələrimiz oldu. Bu, Azərbaycanla Avropa İttifaqı arasında ikitərəfli münasibətlərin əhəmiyyətini bir daha vurğulayır. Eyni zamanda Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişel Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə fəal şəkildə cəlb olunub. O, artıq Ermənistan və Azərbaycan rəhbərlərinin və özünün iştirakı ilə üç üçtərəfli görüşə evsahibliyi edib. Beləliklə, bu, çox müsbət kontekstdir. Lakin bunu nəzərə alaraq biz Avropa Parlamentinin hərəkətlərini başa düşə bilmirik. Əslində, Avropa Parlamenti Ermənistan parlamenti ilə müqayisədə Azərbaycana qarşı daha çox aqressivdir. Bəzən elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir. Təəccübləndiyimi deyəndə mən məhz bunu nəzərdə tuturdum.

Cənab MakAlister, sizi görməyə çox şadam. Mən bizim görüşümüzü xatırlayıram. Bilirəm ki, siz bu qətnamənin lehinə səs verməmisiniz. Lakin əfsuslar olsun ki, bir çox Avropa parlamentariləri heç bir əsas olmadan bizi hücuma məruz qoyublar. Beləliklə, vəziyyət belədir. Biz real dünyada yaşayırıq, bu, bizim seçimimiz deyil. Siz mənim mövqeyimi bilirsiniz. Mənim mövqeyim 2017-ci ildə sonuncu görüşümüzdən bəri dəyişməyib. Biz Avropa ilə yaxın münasibətlər qurmaq istəyirik və bizim bütün etdiklərimiz, o cümlədən indicə qeyd etdiyim əməkdaşlığın nəzərəçarpan əlamətləri bunu nümayiş etdirir. Lakin Avropa Parlamenti belə bir yol seçməyi düşünürsə, bu, onların seçimidir. Amma onlar parlamentin bəzi üzvlərinin cəhdlərinə baxmayaraq, Avropanı Azərbaycandan və Azərbaycanı Avropadan təcrid etməyin mümkün olmadığını bilməlidirlər.

Yəqin ki, bu, mənim giriş nitqimin sonu olacaq. Düşünürəm ki, bu, zəruridir. Çünki mən səfərinizin indi - bu səhər başladığını bilirəm və özümü sanki heç nə baş verməyib kimi aparmaq istəmirəm. Baş verib, çox ciddi və bizi narahat edən məsələ baş verib. Buna görə də mən sizi özümün və Azərbaycan xalqının mütləq əksəriyyətinin baxışları haqqında məlumatlandırmağı qərara aldım. Onlar torpaqlarımızı özümüzün azad etməyimizdən, cəsur əsgərlərimizdən, Vətən uğrunda canından keçənlərdən, azərbaycanlı olmaqdan, işğala son qoyan, ədaləti, milli ləyaqətini bərpa edən və indi uğurla inkişaf edən xalqın nümayəndələri olmaqdan qürur hissi keçirirlər.

❖ ❖ ❖

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri **Devid MakAlister:**

- Cənab Prezident. Bizi qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bu, bizim üçün böyük şərəfdir. Söhbətimizin əvvəlində səmimi sözlərinizə görə də təşəkkür edirəm. Bizim nümayəndə heyətinə parlamentin altı üzvü daxildir. Cənubi Qafqaza səfərimiz bütün həftə boyu davam edəcək. Azərbaycana səfərdən sonra biz Gürcüstana, daha sonra isə Ermənistana səfər edəcəyik.

Cənab Prezident, Avropa Parlamentindən olan həmkarlarımı Sizə təqdim etmək istəyirəm. Avropanın Mühafizəkarlar və İslahatçılar Qrupundan olan xanım Assita Kankodur. Həmçinin Yaşıllar Qrupunu təmsil edən Viola Fon Kramon var. Masanın digər tərəfində Sosialist və Demokratların Proqressiv İttifaqının üzvü cənab Sven Mikser, masanın sonunda Demokratlar Qrupunun nümayəndəsi cənab Mariani əyləşib. Bu isə ölkənizdə Avropa İttifaqını təmsil edən, Sizin tanıdığınız səfir Piter Mixalkodur.

Buraya gəlişimiz bizim Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərə verdiyimiz əhəmiyyətin göstəricisidir. Bu münasibətlər hazırkı tarixi dəyişiklik dönəmində özünü daha aşkar şəkildə büruzə verir.

Cənab Prezident, fürsətdən istifadə edərək dünən Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin ölkənizə səfəri ilə bağlı təəssüratlarınızı öyrənmək istərdik.

❖ ❖ ❖

Dövlətimizin başçısı Avropa İttifaqı Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfərinin əhəmiyyətinə toxundu və səfərin nəticələrini müsbət qiymətləndirdi. Prezident İlham Əliyev səfər əsnasında Ursula Fon der Lyayen ilə enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını vurğuladı.

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması üzrə aparılan danışıqlar prosesinə toxundu və Ermənistanın 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmədiyini qonaqların diqqətinə çatdırdı.

Söhbət zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi və bu xüsusda Avropa İttifaqının bütün institutları ilə qarşılıqlı anlaşma şəraitində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.

# Azərbaycan-Türkiyə birliyi və dostluğu bütün sınaqlardan şərəflə çıxıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Derya Yanıkı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Derya Yanık Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı 15 İyul - Demokratiya və Milli Birlik Günündə Türkiyə Prezidenti ilə telefon danışığını məmnunluqla xatırladı. Prezident İlham Əliyev 15 İyul gününün tarixi gün olduğunu qeyd edərək Rəcəb Tayyib Ərdoğanın səyləri və liderliyi ilə Türkiyə xalqının bu çətin sınaqdan şərəflə çıxdığını bir daha bildirdi və vurğuladı ki, hazırda Türkiyənin inkişaf yolunda olması, ölkədə sabitliyin hökm sürməsi xalqımızı çox sevindirir.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycanda olmaqlarından son dərəcə məmnunluqlarını ifadə etdi və Prezident İlham Əliyevin liderliyi sayəsində qazanılan Qarabağ Zəfəri ilə bağlı böyük sevinc hissi keçirdiklərini bir daha vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə birliyi və dostluğunun bütün sınaqlardan şərəflə çıxdığını dedi. Derya Yanıkın rəhbərlik etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərə toxunan Prezident İlham Əliyev Şuşa Bəyannaməsinin imzalanmasından sonra münasibətlərimizin ən yüksək zirvəyə qalxdığını qeyd etdi. Azərbaycan Prezidenti bildirdi ki, bu bəyannamənin müqəddəs şəhərimiz olan Şuşada imzalanması xüsusi önəm daşıyır.

Sonra dövlətimizin başçısı Türkiyə Prezidenti ilə Zəngilan hava limanının açılışında iştirak edəcəklərini məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev bu gün dostluq və qardaşlıq münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, Derya Yanıkın səfərinin ölkələrimizin aidiyyəti qurumları arasında əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyinə əminliyi bildirdi.

# Beynəlxalq Cüdo Federasiyası Azərbaycanda cüdonun inkişafını yüksək qiymətləndirir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Marius Vizeri ölkəmizdə salamlamaqdan məmnunluğunu bildirərək Beynəlxalq Cüdo Federasiyasının Azərbaycanda cüdo idman növünün inkişafına verdiyi dəstəyi qeyd etdi.

Prezident İlham Əliyev cüdoçularımızın əldə etdikləri son nailiyyətlərdən danışdı, onların beynəlxalq turnirlərdə daha uğurla iştirak etdiklərini vurğuladı, Azərbaycan Cüdo Federasiyasındakı dəyişikliklərə toxundu.

Dövlətimizin başçısı Beynəlxalq Cüdo Federasiyası tərəfindən ölkəmizdə idmanın bu növü ilə bağlı verilən tövsiyələrin önəmini vurğulayaraq bunun Azərbaycanda cüdonun inkişafına, xüsusilə gənc nəslin bu idman növünə marağının artırılmasına xidmət etdiyini bildirdi.

Qonaq ölkəmizin Beynəlxalq Cüdo Federasiyasının fəal üzvü olduğunu məmnunluqla qeyd etdi və uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi. Marius Vizer Azərbaycanda cüdonun inkişafına göstərilən diqqəti yüksək qiymətləndirdi.

# Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Bu məqsədlə aqrar sahəyə dövlət dəstəyi mexanizmləri təkmilləşdirilir və beynəlxalq təcrübəyə əsaslanan yeni dəstək tədbirləri həyata keçirilir.

Son dövrlər ölkədə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər ərzində işğal altında qalan torpaqların işğaldan azad olunması ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin daha da artırılması məqsədilə yeni hədəflərin müəyyən edilməsinə imkan verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qlobal ərzaq bazarında baş verən proseslər nəzərə alınmaqla mövcud resursları səfərbər etməyə imkan verən yeni tənzimləmə mexanizmlərinin yaradılması hesabına ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə ərzaqlıq buğda istehsalının təşkili məqsədilə **qərara alıram:**

1. İlkin mərhələdə pilot layihə olaraq, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına (bundan sonra - tədarükçülər) təhvil verilən ərzaqlıq buğdaya 2023-cü ildən başlayaraq 5 il müddətində məhsul subsidiyası tətbiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin təklifləri əsasında taxıl haqqında qanunvericiliyin təkmilləşdirilməsi, o cümlədən bu Fərmanın 2.3-cü bəndi nəzərə alınmaqla, ərzaqlıq buğdanın dövlət tədarükü ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında ərzaqlıq buğda istehsalçılarına müasir təsərrüfatların yaradılması və müasir suvarma sistemlərinin alınması üçün güzəştli şərtlərlə verilən kredit mexanizminin təkmilləşdirilməsi və dövlət zəmanətinin tətbiqi ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. ərzaqlıq buğdanın istehsal xərclərini (maya dəyərini) və istehsalçının mümkün qazancını nəzərə almaqla, 2022-ci il avqustun 1-dək, növbəti illərdə isə hər il iyulun 1-dək ərzaqlıq buğdanın dövlət tədarük qiymətini müəyyən etsin;

2.4. bu Fərmanda nəzərdə tutulan tədbirlərin icrası nəticələrinin təhlili ilə bağlı hər il Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim etsin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan təsərrüfatlarla ərzaqlıq buğdanın istehsalına dair müqavilələrin bağlanılmasını təmin etsin;

3.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan təsərrüfatlarda istehsal edilərək tədarükçülərə təhvil verilən ərzaqlıq buğdaya Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq məhsul subsidiyasının tətbiq edilməsi üçün tədbirlər görsün;

3.3. bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulan müqavilələrin bağlanılması şərtilə ərzaqlıq buğda istehsal etmək məqsədilə müasir suvarma sistemlərini qurmaq istəyən təsərrüfatlara həmin sistemlərin alınması üçün Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"na uyğun olaraq güzəştlərin tətbiq olunmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Azərbaycan Respublikasına idxal edilən ərzaqlıq buğdanın qiymətini əsas götürərək hər ay üçün orta idxal statistik göstəricini elan etsin.

5. Aqrar Subsidiya Şurası bu Fərmanın 1-ci hissəsinə əsasən, ərzaqlıq buğdaya məhsul subsidiyasının tətbiqi üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq əmsalı müəyyən etsin və məhsulun təhvil verilmə dövründə orta idxal statistik göstərici dövlət tədarük qiymətindən aşağı olduğu hallarda, aradakı fərqin istehsalçıya kompensasiya edilməsi məqsədilə məhsul subsidiyasının əmsalını yeniləsin.

6. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti bu Fərmanda nəzərdə tutulan təsərrüfatların su təminatının təkmilləşdirilməsi məqsədilə tədbirlər görsün.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3.2-ci və 3.3-cü bəndlərində nəzərdə tutulan tədbirlərin maliyyələşməsi üçün tələb olunan vəsaiti 2023 - 2028-ci illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2022-ci il*

# A.Ş.Süleymanovun Azərbaycan Texnologiya Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Akif Şamil oğlu Süleymanov Azərbaycan Texnologiya Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2022-ci il*

# Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşıdır



**İyulun 19-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisdən verilən məlumata görə, parlamentin Sədri qonaqları salamlayaraq bu səfərin və səfər çərçivəsində aparılacaq müzakirələrin Avropa İttifaqı ilə Azərbaycan arasında, eləcə də Avropa Parlamenti ilə Milli Məclis arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə inamını ifadə edib.

Sahibə Qafarova bildirib ki, Azərbaycan Avropa İttifaqı ilə münasibətlərin inkişafında maraqlıdır. Aİ ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir.

Yüksəksəviyyəli səfərlər və görüşlər ikitərəfli münasibətlərin inkişafında müstəsna rol oynayır. Spiker bu kontekstdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin 2021-ci ilin iyulunda Azərbaycana səfərini xatırlayıb. O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci ilin dekabrında Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə VI zirvə toplantısında iştirakı, həmçinin bu ilin aprel və may aylarında Brüsselə səfərləri Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin xarakterini nümayiş etdirir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Avropa İttifaqı ilə Azərbaycan arasında bir sıra mühüm sənədlər imzalanıb və hazırda biz Avropa İttifaqı ilə tərəfdaşlıq haqqında yeni sazişin imzalanması üzrə danışıqların yekun mərhələsindəyik. Bundan başqa, Azərbaycan Avropa İttifaqının doqquz üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb ki, bu da Aİ-yə üzv dövlətlərin üçdəbirini təşkil edir.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycan neftlə yanaşı, Avropanın etibarlı qaz təchizatçısına çevrilib. İyulun 18-də isə Prezident İlham Əliyev ölkəmizdə səfərdə olan Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenlə "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalayıblar.

Söhbət zamanı parlamentin Sədri qonaqlara Milli Məclisin strukturu və fəaliyyəti barədə məlumat verib, onların suallarını cavablandırıb.

Sonra spiker bildirib ki, Azərbaycan 30 il Ermənistanın işğalı altında olmuş ərazilərini 2020-ci ildə Vətən müharibəsi nəticəsində azad edib. Bununla da Azərbaycan BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 4 qətnaməsinin icrasını özü təmin edib. Azərbaycan öz ərazilərini azad etdikdən sonra həmin bölgələrdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlayıb. Hazırda işğaldan azad olunmuş ərazilərdə bütün infrastruktur bərpa edilir. Milli Məclisin Sədri xatırladıb ki, Ermənistan 30 ilə yaxın işğal altında saxladığı Azərbaycanın bütün şəhər və rayonlarını dağıdıb, mədəni, tarixi irsini məhv edib, dini abidələri təhqir edib. Onun sözlərinə görə, həmin ərazilərə səfər edən Avropanın bəzi ölkələrinin parlament sədrləri, beynəlxalq təşkilatların təmsilçiləri, səfirliklərin və diplomatik korpusların nümayəndələri, jurnalistlər, xarici ölkədən olan digər insanlar həmin ərazilərdə Ermənistan tərəfindən törədilən vandalizmin şahidi olurlar. Sahibə Qafarova buna baxmayaraq, bu ilin mart ayında Avropa Parlamentinin guya Qarabağda erməni irsinin dağıdılması haqqında qətnamə qəbul etməsinin ədalətsiz olduğunu bildirib və qeyd edib ki, həmin qətnamədə irəli sürülən iddialar tamamilə yalandır, böhtan xarakterlidir.

Spiker diqqətə çatdırıb ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında keçirilmiş üçtərəfli görüşləri təqdir edirik. Azərbaycan sülh tərəfdarıdır və regionda uzunmüddətli sülhün, sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirir. Ölkəmiz Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində təkliflərini irəli sürüb. İnanırıq ki, tezliklə iki ölkə arasında sülh müqaviləsi imzalanacaqdır.

Göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlister dövlət başçısı İlham Əliyevlə görüşü barədə təəssüratlarını bölüşüb, müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb. Bildirib ki, onların ölkəmizə bu səfəri Aİ-Azərbaycan əməkdaşlığının önəmindən xəbər verir. Qonaq Azərbaycanın Aİ-nin mühüm tərəfdaşı olduğunu və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasını istədiklərini diqqətə çatdırıb. O, bu baxımdan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında keçirilmiş üçtərəfli görüşləri yüksək qiymətləndirdiklərini deyib.

Söhbət zamanı qonaq Aİ-Azərbaycan əlaqələri, enerji sahəsində əməkdaşlıq, parlament diplomatiyasının inkişafı və digər məsələlər barədə fikirlərini bölüşüb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətləri günbəgün möhkəmlənir və genişlənir



**İyulun 19-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Dərya Yanıkın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisdən verilən məlumata görə, parlamentin Sədri qonaqları salamlayaraq, ikitərəfli əlaqələrimizin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb. Spiker ölkələrimiz arasında münasibətlərin Prezident İlham Əliyevin ifadə etdiyi kimi, dünya siyasi sistemində analoqunun olmadığını söyləyib. Qeyd edilib ki, qardaşlıq və dostluq münasibətlərimiz günbəgün möhkəmlənir və genişlənir. Hər iki ölkə prezidentləri arasındakı dostluq münasibətləri dövlətlərarası əlaqələrin inkişafına da öz müsbət təsirini göstərməkdədir.

Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün Azərbaycanla Türkiyə arasındakı qarşılıqlı səfərlər yalnız ölkə rəhbərləri səviyyəsində deyil, ayrı-ayrı dövlət qurumlarımız arasında da həyata keçirilir. Bu baxımdan ailə, qadın və sosial məsələlərlə məşğul olan Türkiyə qurumu başçısının Azərbaycana səfəri və ölkəmizin müvafiq qurumu ilə münasibətlərin dərinləşməsi, əməkdaşlığın daha da genişlənməsi istiqamətində atılan addımlar, həyata keçirilən uğurlu layihələr bu fikri söyləməyə əsas verir. Ayrı-ayrı qurumlar və institutlar arasında əməkdaşlığın dərinləşməsi dövlətlərarası münasibətlərimizin də möhkəmlənməsinə töhfə verməkdədir.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Bu sahə dövlətin daim diqqət mərkəzindədir. Heç də təsadüfi deyildir ki, Azərbaycan parlamentində də bu məsələlərlə məşğul olan komitə mövcuddur. Həmin komitədə mütəmadi olaraq keçirilən dinləmələrdə bu sahədəki problemlərin həlli yolları barədə fikir mübadiləsi aparılır, müəyyən təkliflər dinlənilir. Spiker qeyd edib ki, Milli Məclisin müvafiq komitəsi ilə bu problemlərlə məşğul olan dövlət komitəsi arasında çox uğurlu əməkdaşlıq mövcuddur.

Söhbət zamanı Sahibə Qafarova qeyd edib ki, Milli Məclisdə ailə, qadın və uşaq məsələləri qanun yaradıcılığı sahəsində daim diqqət mərkəzindədir. Belə ki, parlamentdə bu sahəyə aid bir çox yeni qanunlar qəbul edilib, mövcud qanunlara isə müasir reallıqlara uyğun olaraq dəyişikliklər olunub.

Spiker vurğulayıb ki, bu gün Milli Məclislə Türkiyə parlamenti arasında sıx əməkdaşlıq vardır. Belə ki, hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir və deputatlarımız ikitərəfli, üçtərəfli və çoxtərəfli formatlarda uğurlu əməkdaşlıq edirlər. Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyəti bir neçə dəfə Azərbaycanda olub, Azərbaycan nümayəndə heyətləri də Türkiyəyə səfərlər həyata keçiriblər.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan və Türkiyə parlamentləri arasında beynəlxalq platformalarda sıx əməkdaşlıq mövcuddur. Yaxın günlərdə Azərbaycan, Pakistan, Türkiyə parlament sədrlərinin ikinci üçtərəfli görüşünün keçirilməsi nəzərdə tutulur. Bütün bunlar parlamentlər arasında sıx əməkdaşlığın bariz nümunəsidir.

Söhbətdə spiker 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi zəfərdən, torpaqların işğaldan azad olunmasından, işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq və abadlıq işlərindən, Qarabağ zəfərinin qazanılmasında Türkiyənin göstərdiyi mənəvi dəstəkdən söz açıb. O bildirib ki, qardaş ölkənin bizimlə müxtəlif sahələrdə əməkdaşlığı xalqlarımızın birlik və həmrəyliyinin daha da güclənməsinə imkan yaradır.

Səmimi görüş üçün minnətdarlığını bildirən Türkiyənin ailə və sosial xidmətlər naziri Dərya Yanık ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Bildirib ki, onun rəhbərlik etdiyi qurum Azərbaycanın müvafiq dövlət qurumları ilə sıx əməkdaşlıq edir və bir sıra uğurlu layihələrin həyata keçirilməsinə nail olublar. Onlar gələcəkdə bu əməkdaşlığı daha da dərinləşdirmək niyyətindədirlər.

Qonaq Bakıda keçirilən görüşlər zamanı müzakirə olunan məsələlərin əhəmiyyətini yüksək qiymətləndirib. O, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi zəfəri bütün türk dünyasının zəfəri kimi dəyərləndirib və hər bir azərbaycanlı kimi bundan çox qürurlandığını dilə gətirib. Nazir qeyd edib ki, Azərbaycanın və Türkiyənin günbəgün güclənməsi onların beynəlxalq aləmdə nüfuzunun daha da artmasına səbəb olur. O, Qarabağda qazanılan zəfər münasibəti ilə xalqımızı və Milli Məclisin Sədrini bir daha təbrik edib. Qonaq səfər çərçivəsində işğaldan azad olunmuş Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfər edəcəyini və bundan böyük həyəcan duyduğunu qeyd edib.

Türkiyəli nazir Azərbaycanın digər dövlət qurumları ilə yanaşı, ölkənin Milli Məclisi ilə də əməkdaşlığın əhəmiyyətini qeyd edib. Bildirib ki, qanunvericilik sahəsində ailə, qadın və sosial məsələlərlə bağlı problemlərin çözülməsi üçün müsbət işlər görmək baxımından geniş imkanlar vardır. O, azərbaycanlı deputatlarla türkiyəli deputatların bu sahədəki mütəmadi təmaslarını təqdirəlayiq hesab edib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə də danışılıb.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki səfiri Cahit Bağçı və digər rəsmi şəxslər iştirak ediblər.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin İkinci Üçtərəfli Görüşündə iştirak edəcək

**İyulun 20-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətimiz Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin İkinci Üçtərəfli Görüşündə iştirak etmək üçün Türkiyə Respublikasının İstanbul şəhərinə səfər edəcək.**

Milli Məclisdən verilən məlumata görə, nümayəndə heyətinə parlamentin komitə sədri Tahir Mirkişili, komissiya sədri Eldar Quliyev, deputatlardan Elnur Allahverdiyev, Anar Məmmədov və digər rəsmi şəxslər daxildirlər.

Milli Məclisin Sədri iyulun 21-də burada keçiriləcək Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin İkinci Üçtərəfli Görüşünə qatılacaq, tədbirdə müzakirə olunacaq məsələlərə Azərbaycan tərəfinin mövqeyini bildirəcək.

Səfər çərçivəsində keçiriləcək ikitərəfli görüşlərdə parlamentlərarası əlaqələrin bugünü və gələcək inkişaf perspektivləri, çoxtərəfli formatda əməkdaşlığın daha da dərinləşdirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılacaq.

Səfər iyulun 22-də başa çatacaq.

***"Azərbaycan"***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

İyulun 19-da Baş prokuror Kamran Əliyev Salyan Rayon Prokurorluğunun inzibati binasında Salyan, Neftçala, Biləsuvar, həmçinin digər rayonlardan olan vətəndaşları qəbul edib.

Baş Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 52 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Neftçala və Biləsuvar rayon prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

# Avropa Parlamentinin nümayəndələrinə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi planları barədə məlumat verilib



**Energetika naziri Pərviz Şahbazov ölkəmizdə səfərdə olan Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri, parlamentin üzvü Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Avropa İttifaqı ilə enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun təbii qaz təchizatı, bərpaolunan enerji, yaşıl hidrogen, enerji effektivliyi, ətraf mühitin mühafizəsi və sair kimi istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün əhəmiyyəti vurğulanıb.

Azərbaycanın karbohidrogen resursları, "Cənub qaz dəhlizi"nin genişləndirilməsi planları, ölkəmizin bərpaolunan enerji potensialı, özəl investisiyaların cəlbi ilə bu təbii resurslardan enerji keçidi prosesində səmərəli istifadə və "yaşıl enerji" ixracı, enerji effektivliyi, iqlim dəyişikliyinə qarşı mübarizə istiqamətində hədəflər, Qarabağ və Şərqi Zəngəzurda Yaşıl Enerji Zonasının yaradılması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib və parlament nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

# XII Beynəlxalq Multikulturalizm Yay Məktəbi başlayır

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) "Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi" adlı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsinə start verir. Multikulturalizm Mərkəzi yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirir.**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləridir. 2022-ci ilin yaz semestrində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədris olunduğu xarici və yerli universitetlərdə təhsil alan tələbələrin qatılacağı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbi iyulun 24-dən 31-dək Bakı şəhəri ilə yanaşı, Şəki, Qəbələ və Qax rayonlarında fəaliyyət göstərəcək.

Qeyd edək ki, Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Yay və Qış məktəbləri tədris layihəsi çərçivəsində hazırda dünyanın 24 nüfuzlu ali təhsil ocağında, eləcə də ölkəmizdə Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunur. Layihənin məqsədi həmin gənclərin nəzəri biliklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

XII Beynəlxalq Multikulturalizm Yay Məktəbində 14 ölkənin - Azərbaycan, Ukrayna, Rusiya, Türkiyə, Fransa, İspaniya, Misir, Türkmənistan, Gürcüstan, Rumıniya, Qana, Nigeriya, Bolqarıstan, Suriya kimi ölkələrin aparıcı universitetlərindən 20-dən çox tələbə iştirak edəcək. Yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc və yanaşı yaşaması haqqında mühazirələr təqdim ediləcək.

Yay məktəbi müddətində iştirakçıların Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev ilə görüşləri planlaşdırılır. Tələbələr ilk gün Şəhidlər xiyabanı və Fəxri xiyabanı ziyarət edəcəklər. Yay məktəbi çərçivəsində Şəkidə Karvansaray, Xan sarayı kompleksinə, Qəbələdə udilərin yaşadığı Nic qəsəbəsinə, Alban-udi xristian kilsəsinə, Qaxda Kürmük məbədinə ziyarət də nəzərdə tutulub. XII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin bağlanış mərasimində iştirakçılara sertifikatlar təqdim olunacaq.

Artıq dəyərli ənənəyə çevrilən beynəlxalq multikulturalizm yay və qış məktəblərinin nəticəsi olaraq, xaricdə Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması və güclü lobbisi formalaşıb. İntensiv şəkildə davam edən bu proses sübut edir ki, Prezident İlham Əliyevin Azərbaycanın dünyada tanıdılması istiqamətində müəyyənləşdirdiyi hədəflər uğurla reallaşmaqdadır.







# Qayıdışla başlanan Qurtuluş

## 32 il öncə Heydər Əliyev Azərbaycana qayıdaraq xilaskarlıq missiyasına başladı

Tarixi reallıqlar təsdiq edir ki, məhz güclü və qətiyyətli siyasi liderlər öz xalqlarına nəinki rifah bəxş edir, həm də dövrün ən çətin sınaqlarından layiqincə çıxararaq xilaskarlıq missiyalarını da yerinə yetirirlər.

Bu baxımdan xalqımızın Ulu Öndəri Heydər Əliyevin istər sovet, istər müstəqillik illərində həyata keçirdiyi tarixi missiya siyasi liderlərin mənsub olduqları xalqların və dövlətlərin taleyindəki roluna dair mükəmməl nümunədir.

Öncə qeyd etmək yerinə düşər ki, ötən həftə Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyə başlamasının 53-cü ili tamam oldu. 1969-cu ilin 14 iyulunda respublika rəhbəri kimi vəzifəsinin icrasına başlayan Heydər Əliyev Azərbaycanı keçmiş ittifaqın qabaqcıl ölkəsinə çevirməklə yanaşı, həm də ötən əsrin 60-cı illərindən etibarən ermənilərin ölkəmizə qarşı həyata keçirməyə cəhd göstərdikləri separatçı planların qarşısını qətiyyətlə almışdı. İstər sovet Azərbaycanına rəhbərliyi illərində, istərsə də SSRİ rəhbərliyində çalışdığı dövrdə Heydər Əliyev ermənilərin bütün riyakar planlarının üstündən xətt çəkmişdi. Təsadüfi deyil ki, ermənilər Azərbaycana qarşı əsassız iddialarını və separatçılıq fəaliyyətlərini yalnız Heydər Əliyevin sovet rəhbərliyinin siyasətinə etiraz olaraq öz vəzifələrindən istefaya getdikdən sonra həyata keçirməyə başladılar.

Ötən əsrin 80-ci illərinin sonlarında xalqımızın üzləşdiyi ağrılı proseslər, 20 Yanvar hadisələri həm də onu göstərirdi ki, Azərbaycana rəhbərlik edənlər siyasi lider üçün xarakterik olan bütün yüksək keyfiyyətlərdən uzaqdırlar. Sovet respublikalarında mərkəzdənqaçma meyillərinin gücləndiyi, müstəqillik ideyalarının geniş yayıldığı bir dövrdə respublikamızın rəhbərləri SSRİ rəhbərliyinin erməni təəssübünü çəkən fəaliyyəti qarşısında qətiyyətsizlik nümayiş etdirir, etirazlarını ifadə edə bilmirdilər. Hətta öz müti siyasətləri ilə sovet dövlətinin qorunmasına tərəfdar olan həmin rəhbərlər xalqımızın azadlıq mücadiləsinin boğulması üçün əllərindən gələni edirdilər.

Məhz belə bir ərəfədə - 1990-cı il iyulun 20-də Heydər Əliyevin Moskvadan Azərbaycana qayıdışı respublikamızda başlanan milli azadlıq mücadiləsinin tamamilə yeni keyfiyyət mərhələsinə yüksəlməsinin başlanğıcı oldu. Ulu Öndər bir vaxtlar inkişaf etdirdiyi, yüksəltdiyi, lakin sonrakı dövrdə qətiyyətsiz rəhbərlərin tənəzzülə uğratdıqları Azərbaycanın müstəqilliyi uğrunda tarixi missiyasını isə qədim yurdumuz Naxçıvandan başladı. Heydər Əliyevin iyulun 22-də Bakıdan Naxçıvana gəlişi həm də bu dahi şəxsiyyətin, görkəmli dövlət xadiminin yenidən böyük siyasətə qayıdışı ilə əlamətdar oldu. Heydər Əliyevin Naxçıvana qayıdışı muxtar respublika sakinləri tərəfindən coşqu və sevgi ilə qarşılandı. Ulu Öndərin həmin il Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilməsi də bu sevginin və Heydər Əliyev şəxsiyyətinə böyük inamın təcəssümü idi.

Heydər Əliyevin Naxçıvana qayıdışı respublikamızda davam etməkdə olan müstəqillik uğrunda mübarizədə muxtar respublikanın aparıcı rol oynamasına, bir növ bu mücadilənin mərkəzinə çevrilməsinə gətirib çıxardı. Belə ki, məhz Heydər Əliyevin sayəsində ilk dəfə olaraq Naxçıvanda müstəqilliyimizə aparan yolda həlledici, bütövlükdə azadlıq mübarizəsi prosesinə əhəmiyyətli dərəcədə təsirini göstərən və bu gün dövlətçilik tariximizin şərəfli hadisələri kimi ehtiramla xatırlanan addımlar atıldı. Belə ki, Heydər Əliyevin qətiyyəti və prinsipiallığı nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması sıradan olan hadisələr deyildi. Bütün bunları etmək o dövr üçün böyük qəhrəmanlıq və cəsarət tələb edirdi. Bu gün dönüb tarixə baxanda, prosesləri təhlil edəndə Ulu Öndər Heydər Əliyevin nə qədər böyük və qətiyyətli şəxsiyyət, əsil siyasi və milli lider olduğunu görürük. Bütün bunlar məhz xalqımızın dahi övladının müəllifliyi ilə yazılan şanlı dövlətçilik tariximizin parlaq səhifələridir.

Heydər Əliyev Naxçıvana qayıdışı ilə həm də öz doğma yurdunu erməni qəsbkarlığından, işğalından qorudu, xilas etdi. O illərdə Azərbaycan hakimiyyətinin ögey münasibəti Naxçıvanı düşmən qarşısında təkbaşına qoymuşdu. Ölkə rəhbərliyinin qətiyyətsizliyi ermənilərin Qarabağla bağlı işğal planlarına yol açdığı kimi Naxçıvan üçün də böyük təhlükələr yaradırdı. Məhz Heydər Əliyevin sərkərdə qətiyyəti ermənilərin Naxçıvanla bağlı planlarını alt-üst etdi.

Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi isə nəinki Naxçıvanın, bütün respublikanın həyatında da mühüm siyasi hadisə oldu. O illərdə Naxçıvanda müdafiənin etibarlı təşkili, Türkiyə və İranla əlaqələrin qurulması, Araz çayı üzərində "Ümid körpüsü"nün salınması, keçmiş sovet ordusunun hissələrinin muxtar respublikadan çıxarılması və onlara məxsus hərbi texnika və sursatın təhvil alınması, torpaq islahatlarının və ordu quruculuğunun həyata keçirilməsi Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünün möhtəşəm nümunələridir.

Elə buna görə də müstəqilliyimizin ilk illərində yaranmış böhranlı şəraitdə xalqımız inanırdı ki, respublikanı bu vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilər. 1992-ci ilin noyabrında Naxçıvanda Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis olunması da Ulu Öndərin qurtuluş missiyasının ilk addımı idi.

Bütövlükdə 1990-cı il iyulun 22-də Naxçıvana qayıdışı ilə xalqımızın müstəqillik mübarizəsinin möhtəşəm salnaməsini yaradan, muxtar respublikanı düşməndən qoruyan Heydər Əliyev 1993-cü ildə qurtuluş missiyasını da şərəflə yerinə yetirərək dövlətçiliyimizi sarsılmaz, müstəqilliyimizi əbədi etdi. Naxçıvana və böyük siyasətə qayıtdıqdan sonra başlatdığı tarixi missiya ilə Heydər Əliyev həm də Azərbaycan dövlətinin memarına və xalqımızın Ümummilli Liderinə çevrildi.

Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası, dövlətçilik xətti bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, layiqincə yaşadılır. Bunun nəticəsidir ki, vaxtilə Heydər Əliyevin qoruduğu Naxçıvan indi yüksəlişinin qızıl dövrünü yaşayır. Öz inkişafı ilə nümunələr yaradan muxtar respublika həm də düşmən qarşısında göz dağıdır.

Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan dövləti bu gün bölgədə lider, dünyada söz sahibidir. Prezident İlham Əliyev ölkəmizin inkişafını elə bir səviyyəyə çatdırıb ki, indi Azərbaycanın qarşısında həlli mümkün olmayan məsələ yoxdur. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunması bunu təsdiq edən ən böyük tarixi gerçəklikdir.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# Prezident fəaliyyətinin uğur hesabatı

## **İlham ƏLİYEV bəyan etdi:** Ölkəmiz davamlı inkişafdadır, Azərbaycan hər istiqamət üzrə irəliləyir, heç kim bizim iradəmizə təsir edə bilməz!

Uğurlu idarəçiliyi təmin edən əsas faktorlardan biri hakimiyyətin öz fəaliyyəti və hədəflədiyi məsələlər barədə ölkə ictimaiyyətinə məlumatların, hesabatların verilməsidir.



Bütün bunları öz idarəçilik konsepsiyasında əsas prinsiplərdən biri kimi müəyyən etmiş Prezident İlham Əliyev hər bir məsələdə xalqın məlumatlandırılmasını zəruri hesab edir. Dövlət başçısının sədrliyi ilə hər bir ilin və ya ilin müəyyən dövrünün yekunlarına, yaxud digər məsələlərə həsr olunan müşavirələrin keçirilməsi də bu istiqamətdə atılan addımlardan biridir. "Bizim bu müşavirəmiz də bir növ vətəndaşlara verilən hesabatdır. Eyni zamanda vətəndaşlar bilsinlər ki, biz hansı işləri görməyi planlaşdırırıq, onlardan da təkliflər gözləyirik", - deyə dövlət başçısı belə müşavirələrin birində deyib.

### Qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilir

İyulun 15-də keçirilən bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev ötən dövrün siyasi, iqtisadi, sosial yekunları ilə bağlı məsələləri diqqətə çatdırdı. Dövlət başçısının toxunduğu, qeyd etdiyi hər bir məsələ göstərdi ki, Azərbaycan hakimiyyəti qarşıda dayanan bütün vəzifələri layiqincə yerinə yetirir, hər bir məsələdə dövlətin milli maraq və mənafeləri qətiyyətlə təmin edilir.

Bu baxımdan ötən yarım ilin siyasi və iqtisadi yekunları Prezident İlham Əliyevin növbəti hesabatı idi. Dövlət başçısı nitqinin əvvəlində bütün istiqamətlər üzrə vəzifələrin icra olunduğunu bəyan etdi: "İlin altı ayı bir daha onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyduğumuz vəzifələr icra edilir".

Bu ilin geridə qalan 6 ayında respublikamız beynəlxalq mövqelərini daha da gücləndirib. Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi qətiyyətli fəaliyyəti həm də respublikamızın beynəlxalq nüfuzuna təsir edən mühüm amildir. Eyni zamanda bu il Avropa İttifaqı ilə fəal əməkdaşlıq həyata keçirilərək əlaqələrin inkişafı istiqamətində razılaşmalar əldə olunub.

İlin birinci yarısı Azərbaycanın ABŞ-la münasibətləri baxımından da əlamətdar olub. Dövlət başçılarının əlamətdar hadisələrlə bağlı bir-birlərinə məktublarında əlaqələrin inkişafından söz açılıb, önəmli məsələlərə toxunulub. Bütövlükdə, Prezident İlham Əliyevin uğurlu xarici siyasəti, ayrı-ayrı dövlət və beynəlxalq təşkilat rəhbərləri ilə görüşləri, xarici səfərləri Azərbaycanın yürütdüyü siyasətin müstəqil və qətiyyətli olduğunu, dövlətimizin milli maraqlarını layiqincə təmin etdiyini göstərib. "Yəni, bir sözlə, əsas güc mərkəzləri ilə, eyni zamanda əsas beynəlxalq təşkilatlarla, baxın, cəmi bu altı ay ərzində nə qədər böyük işlər görülüb. Əgər ümumiyyətlə, son illərin tarixçəsinə nəzər salsaq görərik ki, Azərbaycan hər istiqamət üzrə irəliləyib. Bizim mövqeyimiz hər zaman müstəqil mövqe olub, biz hər zaman öz mövqeyimizi açıq nümayiş etdirmişik, o cümlədən buna görə dünyada böyük hörmət qazanmışıq", - deyə İlham Əliyev bildirib.

### Ermənistan öhdəliklərini yerinə yetirməyə məhkumdur

İlin ilk yarısının əsas siyasi prosesləri sırasında əsas məqamlardan biri Azərbaycanın Vətən müharibəsindəki qələbədən sonra bölgədə yaratdığı yeni reallıqlar fonunda mövqelərini daha da gücləndirməsidir. Ermənistanın Azərbaycanın beş prinsipini qəbul etməsi, delimitasiya üzrə işçi qrupların görüşünün keçirilməsi göstərir ki, Azərbaycan yeni reallıqlar fonunda uğurlarını davam etdirir.

Lakin görünən həm də odur ki, Ermənistan məcburən üzərinə götürdüyü öhdəlikləri hər vəchlə yerinə yetirməkdən yayınır. Müşavirədə Prezident İlham Əliyev bu barədə ətraflı bəhs etdi. Ermənistanın öhdəlik olaraq yerinə yetirmədiyi əsas məsələlərdən biri Zəngəzur dəhlizinin Mehri hissəsindəki dəmir yolunun tikintisinə hələ də başlamamasıdır. O cümlədən avtomobil yolunun marşrutu da Azərbaycana təqdim olunmayıb.

Ermənistanın yerinə yetirmədiyi başqa bir öhdəlik erməni silahlı qüvvələrinin qalıqlarının Qarabağdan çıxarılmaması ilə bağlıdır. Bu məsələ indiyə qədər öz həllini tapmayıb və Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir.

Prezident İlham Əliyev müşavirədə bununla bağlı Azərbaycanın haqlı narazılığını bir daha diqqətə çatdırdı. Ermənistana xəbərdarlıq etdi: "Biz qalib ölkəyik, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi bilək. Bizim cavabımız nə olacaq? Onu bəlkə də indi demək yersizdir. Ancaq bu, 10 noyabr Bəyannaməsinin kobudcasına pozulması deməkdir".

Prezidentin toxunduğu məsələlərdən biri də Ermənistan rəsmilərinin son vaxtlar gündəmə gətirməyə cəhd göstərdikləri "status" mövzusu oldu. Qeyd edildi ki, 44 günlük müharibədən sonra Azərbaycan ermənilərin status iddialarına tamamilə son qoyub. Məlum olduğu kimi, "Brüssel prosesi" çərçivəsində keçirilən danışıqlarda nə status barədə danışılır, nə də Minsk qrupu barədə. Yeni reallıqlar fonunda artıq bunlar keçmişdə qalıb. Prezident İlham Əliyevin dediyi kimi, status haqqında danışmaq Ermənistan üçün çox təhlükəli məsələdir, çünki Azərbaycan da Zəngəzur üçün status tələb edə bilər.

Prezident İlham Əliyev hərbi quruculuq məsələlərindən danışarkən mühüm mesajlar da verdi. Bildirdi ki, müharibədən sonra yeni silahlı birləşmələr yaradılıb. Ordumuzun döyüş qabiliyyətinin hər zaman yüksək səviyyədə saxlanılması üçün hərbi texnika və silah-sursatlar alınır: "Çünki biz müharibə nədir, işğal nədir yaxşı bilirik və təhlükə nədir onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüququmuzu istənilən yolla təmin edək".

Ermənilər və onlara dəstək verənlər bilməlidirlər ki, Bakı öz qətiyyətli siyasəti ilə İrəvanı bu öhdəlikləri yerinə yetirməyə məcbur edəcək. Azərbaycanın təzyiqləri qarşısında Ermənistan öhdəliklərini yerinə yetirməyə məhkumdur.

### İslahatlar real nəticə verir

Ötən 6 ayın iqtisadi yekunları olduqca müsbətdir. Bu dövrdə iqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənaye sahəsində isə 11,5 faiz artım qeydə alınıb. Bu makroiqtisadi göstəricilər bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin yeni iqtisadi islahatları artıq öz bəhrəsini verməkdədir. Ötən 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat vəsaitin yığılması da iqtisadi sahədə aparılan islahatların, şəffaflığın, dürüstlüyün və hesabatlılığın nəticəsidir. Ötən altı ayda Azərbaycanın ixracı 2 dəfədən çox artıb, o cümlədən qeyri-neft ixracımız 25 faizdən çox yüksəlib. Xarici ticarət balansının müsbət saldosu 6 ayda 12,1 milyard dollardır. Dövlət başçısının müşavirədə vurğuladığı kimi, bütün bu rəqəmlər hər bir ölkə üçün qürur mənbəyi ola bilər.

Qeyd edilən makroiqtisadi göstəricilər eyni zamanda onu göstərir ki, bu dövrdə iqtisadi artım da proqnozlaşdırılandan yüksəkdir. Bir müddət əvvəl dövlət büdcəsinin gəlir və xərclərinin artırılması da 2022-ci ilin mühüm iqtisadi uğurlarından biridir. İqtisadiyyatda baş verən artım həm də iqtisadi müstəqilliyimizin güclənməsi deməkdir. İqtisadi müstəqillik isə öz növbəsində Azərbaycanın regionda və qlobal miqyasda mövqelərini daha da möhkəmləndirən siyasi amillərdən biridir.

Beləliklə, ötən ayın yekunlarına həsr olunmuş müşavirədə qeyd olunan məsələlər həm də İlham Əliyevin uğur hesabatı oldu. Dövlət başçısı bir daha bəyan etdi: Ölkəmiz davamlı inkişafdadır, Azərbaycan hər istiqamət üzrə irəliləyir, islahatlar real nəticə verir, heç kim bizim iradəmizə təsir edə bilməz!

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# MEDİA bir sıra media subyektləri tərəfindən intihar halları barədə xəbərlərin geniş tirajlanması ilə bağlı açıqlama yayıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi bir sıra media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması ilə bağlı məlumat yayıb.

AZƏRTAC açıqlamanı təqdim edir:

Son zamanlar bir sıra media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması, xüsusən də yetkinlik yaşına çatmayan şəxslərin özünə qəsd etməsi ilə əlaqədar mövzuları işləyərkən jurnalist peşəkarlığı baxımından yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaratmaqla, haqlı olaraq ictimai narazılığa səbəb olur.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Respublikasının Audiovizual Şurası və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən bu ilin aprel ayında ölkənin bütün media subyektlərinə tövsiyə olunmuş "Redaksiya siyasəti və peşə etikası qaydaları"nda qeyd olunduğu kimi, intihara cəhdlə bağlı xəbərlərin təsviri təqlid hissi oyatmamalıdır. İntiharın üsulunu və hadisənin detallarını açıqlamaq, başlığa çıxarmaq, mübaliğəyə yol vermək arzuolunan deyil, eyni zamanda jurnalist peşəkarlığının göstəricisi hesab edilə bilməz.

Zorakılıq, intihar və bu kimi digər insanların sağlamlığına və təhlükəsizliyinə dair mənfi təzahürlərlə bağlı məlumatlar adekvat tərzdə işıqlandırılmalı, onların təbliğinə və təsir gücünün artırılmasına yol verilməməlidir.

Eyni zamanda əhalinin həssas qruplarına, uşaqların, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran məlumat, o cümlədən təsvirlərdən istifadə olunmamalıdır. Xatırlatmağı zəruri hesab edirik ki, uşaqlara münasibətdə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə birmənalı şəkildə əməl edilməlidir.

Unutmaq olmaz ki, peşəkar media ictimai əhəmiyyətli informasiyalarla cəmiyyəti məlumatlandırmaq kimi şərəfli və məsuliyyətli missiyanı yerinə yetirir. İntihar halları və bu qəbildən olan digər təzahürlərlə bağlı materialları işıqlandırarkən medianı ictimaiyyət qarşısındakı məsuliyyətinə diqqətlə yanaşmağa və peşəkar həssaslıq nümayiş etdirməyə çağırırıq.

# "Yüksəliş" müsabiqəsinin qalibləri müəyyənləşib

İkinci "Yüksəliş" müsabiqəsinin qalibləri müəyyənləşib.

AZƏRTAC xəbər verir ki, iyulun 15-17-də keçirilən müsabiqənin finalında iştirak edən 116 namizəddən 22 nəfəri qalib adını qazanıb. Onlar müsabiqəyə müraciət edən 12 min 299 nəfər arasından bilikləri, idarəçilik bacarıqları və səriştələri ilə fərqlənən şəxslərdir. Qaliblərdən 5-i qadındır. 10 qalib birinci müsabiqənin müxtəlif mərhələlərində iştirak edib. Ən gənc qalibin 23, ən yaşlı qalibin isə 37 yaşı var.

Müsabiqənin yarımfinal və final mərhələləri "qiymətləndirmə konfransı" (assessment conference) formatında keçirilib. Bu təcrübə ABŞ, Rusiya, Avropa ölkələrində geniş yayılıb və böyük sayda insanların potensialını qiymətləndirmək üçün istifadə olunur. Sözügedən mərhələlərdə strateji düşünmək bacarığı, nəticələrə yönəlmək bacarığı, komandada işləmək bacarığı, kommunikasiya bacarığı, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, liderlik, sosial məsuliyyət və effektivliyin idarə edilməsi səriştələri əsasında ekspertlər tərəfindən qiymətləndirmə aparılıb.

Finalda həmçinin iştirakçılar Təşkilat komitəsinin üzvləri və idarəçi rəhbərlərin müşahidəsi ilə mentor keysi üzrə tapşırıqları yerinə yetiriblər. İdarəçi rəhbərlərin suallarına cavab verən iştirakçılar keys üzrə təqdimatdan sonra onlar tərəfindən qiymətləndiriliblər. Belə ki, hər masaya təyin edilmiş mentor komandada öz səriştəsi ilə seçilən bir finalçıya qiymətləndirmə balı təqdim edib.

Müsabiqənin şərtlərinə əsasən, 20 qalibin seçilməsi planlaşdırılsa da, 6 nəfər eyni nəticəni göstərdiyi üçün Təşkilat komitəsi eyni balı toplayan iştirakçıların hər birinin səriştə və nailiyyətlərinin ədalətli qiymətləndirilməsi baxımından, onların qalib elan olunmasına qərar verib.

Qaliblərin adları ictimaiyyətə yaxın günlərdə açıqlanacaq.

Qaliblərin adı kadr ehtiyatı bankına daxil edilməklə yanaşı, onlar idarəçi rəhbərlər tərəfindən 1 illik fərdi inkişaf planı (https://yukselish.az/mentors.html) və hər biri 20 min AZN məbləğində özünüinkişaf mükafatı əldə edəcək.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən, intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# İlham Əliyevin qlobal təşəbbüsləri Avropa İttifaqının təhlükəsizliyinə etibarlı təminatdır

## Azərbaycanla Aİ arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması əlaqələrə yeni impuls verəcək

Hər bir mötəbər beynəlxalq təşkilatla əməkdaşlıq Azərbaycanın xarici siyasət kursunda əsas yerlərdən birini tutur. Təcrübə göstərir ki, rəsmi Bakının bu məsələdə ortaya qoyduğu mövqe həm də respublikamızın yürütdüyü xarici siyasətin məzmununu nümayiş etdirir.

Bu məzmun isə Azərbaycanın siyasi kursunun tamamilə müstəqil olduğunu, milli maraqlarımızı, dövlətin qlobal miqyasda mövqelərini layiqincə qoruduğunu göstərir. Bu xətt Avropa İttifaqı ilə əməkdaşlıqda da özünü aydın şəkildə göstərir. Bu əməkdaşlıq son illərdə daha da genişlənməyə başlayıb. Xüsusən də İkinci Qarabağ müharibəsindəki zəfərdən sonra əlaqələrdə yeni impuls yaranıb.

İyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri, Prezident İlham Əliyevlə keçirilən görüşü, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması və xanım Ursula Fon der Lyayenin mətbuata bəyanatında ölkəmizin mövqeyi ilə bağlı səsləndirdiyi fikirlər bunu bir daha təsdiqlədi.

### Xarici siyasətin uğuru

Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri, təbii ki, Avropa İttifaqı ilə tərəfdaşlıqdır. Azərbaycan-Aİ əlaqələrinin hüquqi bazasını 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi təşkil edir. Amma bu o demək deyil ki, Azərbaycan-Aİ münasibətləri 1999-cu ildən başlayır. Buna qədər Aİ ilə münasibətlər TACIS, "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (INOGATE), "Humanitar yardım" (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilib.

Azərbaycan Aİ-nin təşəbbüskarı olduğu beynəlxalq layihələrdə fəal iştirak edib. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması ilə təməli qoyulan əməkdaşlıq bu gün müxtəlif istiqamətləri əhatə etməklə münasibətlərə yeni çalarlar gətirməkdədir və əlaqələrdə son illərdə çox ciddi irəliləyişlər müşahidə olunmaqdadır. Bu, ölkəmizin xarici siyasətinin uğurunun təzahürü kimi təqdirəlayiqdir.

Son 19 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasət, milli maraqlara əsaslanan uğurlu diplomatiya sayəsində Azərbaycan qlobal məkanda strateji əhəmiyyətli dövlətə çevrilib. Bunun nəticəsidir ki, Azərbaycan Avropa İttifaqı ölkələri ilə əməkdaşlıqda böyük təcrübəyə malikdir. Ölkəmiz demək olar ki, qurumun üzvü olan dövlətlərin üçdəbiri ilə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb. Bununla yanaşı, Azərbaycan Avropanın enerji təhlükəsizliyi və təchizatının şaxələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Son illərdə Azərbaycanla Aİ arasında əməkdaşlığın yeni səhifəsi açılıb, münasibətlər yeni mərhələyə qədəm qoyub. Azərbaycanla Avropa İttifaqı arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədi isə rəsmi Bakının xarici siyasətinin növbəti uğuru sayılır. Əməkdaşlığın davamı olaraq münasibətlərdə yeni səhifə açan sənəddə qeyd edildiyi kimi, əlaqələrin daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Aİ tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Bir sıra mühüm məsələlərin yer aldığı sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb. Bütövlükdə bu sənəd ikitərəfli tərəfdaşlıq əlaqələrinin inkişafı üçün yeni zəmin yaradıb.



Azərbaycan tək Aİ ilə deyil, həm də bu quruma üzv ölkələrlə də sıx əlaqələrə malikdir. Bu əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi isə həm Azərbaycanın, həm Aİ-nin, həm də bu quruma üzv ölkələrin maraqlarına cavab verir.

Prezident İlham Əliyevin Aİ Şurasının prezidenti Şarl Mişellə keçirdiyi görüşlər və bu görüşdə Aİ rəsmisinin səsləndirdiyi fikirlər bir daha Azərbaycan-Avropa İttifaqı münasibətlərinin qarşılıqlı maraqlar əsasında inkişaf etdiyini təsdiqləyir.

Bütün bunlar bir daha təsdiq edir ki, bu gün Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin inkişafına, transmilli layihələrin reallaşdırılmasına və qlobal təhlükəsizlik məsələlərinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir.

### Avropa İttifaqı Azərbaycanla münasibətləri daha da dərinləşdirmək istəyir

İyulun 18-də keçirilən görüşdə İlham Əliyev bir daha ikitərəfli əməkdaşlığı dəyərləndirərək dedi ki, bu gün mövcud əlaqələr Şərq Tərəfdaşlığı çərçivəsində də çox uğurla inkişaf edir. Bu istiqamətdə çox yaxşı nailiyyətlər, fəal siyasi təmaslar mövcuddur.

Avropa İttifaqının Azərbaycanın əsas ticari tərəfdaşı olduğunu da xatırladan Prezident əmin olduğunu vurğuladı ki, gələn illərdə icrası planlaşdırılan layihələr ticari əməkdaşlığı daha da genişləndirəcək. Gündəlikdə üstün yer tutan ən mühüm məsələ isə enerji sahəsində əməkdaşlıqdır. Xanım komissarın səfəri zamanı isə başlanan enerji dialoqu qarşılıqlı marağın çox yaxşı əlamətidir.

İlham Əliyev tərəflər arasında imzalanacaq yeni sazişlə bağlı da məlumat verdi və bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni sazişə aid hazırda müzakirə edilən məsələlər potensial əməkdaşlığın bütün sahələrini əhatə edir.

Azərbaycanla Aİ arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair yeni Anlaşma Memorandumu isə bu münasibətlərin inkişafında mühüm rol oynayacaq. Elə xanım Ursula Fon der Lyayen da Avropa İttifaqının Azərbaycanla münasibətləri daha da dərinləşdirmək istədiyini deyərək vurğuladı ki, bu sənəd ilk növbədə hər iki tərəfin nümayəndələrinin apardığı əla işin nəticələrinə əsaslanır. Orada enerji sektorunda etibarlı tərəfdaşlıq, eləcə də orta və uzun perspektivdə bərpaolunan enerji məsələləri xüsusi qeyd edilir.

Prezident İlham Əliyev yeni sənədi dəyərləndirərkən dedi ki, enerji sahəsində aparılan fəal əməkdaşlığın 15 ildən artıq tarixi var. Yeni memorandum da tərəflər arasında imzalanmış birinci sənəd deyil. Azərbaycan və Aİ arasında 2006-cı ildə Anlaşma Memorandumu və 2011-ci ildə "Cənub qaz dəhlizi" ilə bağlı Birgə Bəyannamə imzalanıb: "Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Biz neft hasilatı ilə başladıq. Sonra qaz hasilatına keçdik. Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini çəkdik. Əlbəttə ki, 3500 kilometr uzunluğu olan "Cənub qaz dəhlizi" boru kəməri sistemlərini inteqrasiya etdi və bununla təbii qazımız Avropa qitəsinə çatdırılır". İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq təbii ki, böyük nailiyyətdir.

İlham Əliyev yeni imzalanan Anlaşma Memorandumunu gələcək üçün bir növ yol xəritəsi adlandırdı və bir daha bəyan etdi ki, tərəflərin potensialı nəzərə alınaraq şəbəkənin qurulması üzərində daha fəal iş aparılmalıdır.

### Aİ Azərbaycandan aldığı qazın həcmini artırır

Azərbaycanla Aİ arasında imzalanan yeni Anlaşma Memorandumunun ölkəmizə gətirəcəyi dividendi isə Ursula Fon der Lyayen dəyərləndirdi.

Onun firkincə, Aİ Azərbaycandan aldığı qazın həcmini ikiqat artırır, həmçini "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərinə öhdəlik götürür. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Aİ bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracaq.

Göründüyü kimi, demokratiya və tərəqqi yolunda inamla irəliləyən Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı Avratlantik məkana inteqrasiya kontekstində inkişaf etməkdədir.

Prezident İlham Əliyev tərəfindən yürüdülən müstəqil xarici siyasət Avropa İttifaqı ölkələri ilə bərabərhüquqlu, yaxın təmaslara söykənən harmonik münasibətlərin qurulmasına əsaslanır. Azərbaycanın geostrateji mövqeyi Avropa İttifaqına üzv dövlətlərin də ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirməyə marağını artırır. Aİ rəhbərliyi Azərbaycan Prezidentinin irəli sürdüyü qlobal miqyaslı təşəbbüsləri təqdir edir və ölkəmizlə münasibətlərin davamlı yüksəlişi üçün əlaqələri daha da şaxələndirir.

Bütün bunlar isə İlham Əliyevin xarici siyasət strategiyasının uğurlu davamının və Azərbaycanın dünya birliyindəki mövqeyinin getdikcə daha möhkəmləndiyinin bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Müstəqil siyasətin yaratdığı reallıq

## Azərbaycanla Avropa İttifaqının strateji tərəfdaşlığında yeni mühüm mərhələ başlayır

Son dövrlər Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin daha da inkişaf etdiyi, əməkdaşlığın genişləndiyi müxtəlif sahələrdə özünü göstərməkdə davam edir. Aİ həm də Azərbaycanın əsas ticari tərəfdaşıdır.
Həmçinin qlobal siyasi arenada gedən proseslər fonunda Avropa İttifaqı ölkələrinin enerjiyə ehtiyacı Azərbaycanla əlaqələrdə yeni mərhələyə keçidi təmin edib. Belə ki, ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır, Azərbaycanın alternativ enerji potensialı Aİ tərəfindən yüksək qiymətləndirilir.

İyulun 18-də Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" da bunun əyani sübutudur. Təbii ki, əməkdaşlıq yalnız enerji sahəsi ilə məhdudlaşmır. Demək olar ki, bütün sahələrdə əlaqələr yüksələn xətlə davam edir və daha da genişləndirilir.

### Ölkəmiz Avropa İttifaqının iqtisadi tərəfdaşıdır

Prezident İlham Əliyevlə Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen arasında keçirilən görüşdə də Aİ ilə Azərbaycan arasındakı əlaqələrə toxunulub. Geniş tərkibdə keçirilən görüşdə İlham Əliyev Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı çərçivəsində çox uğurla inkişaf etdiyini qeyd edib.

Dövlət başçısı siyasi münasibətlərin inkişafı baxımından da yaxşı nailiyyətlərin qazandığını bildirib: "Çox fəal siyasi təmaslar mövcuddur. Bilirsiniz ki, Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır. Əminəm ki, gələn illərdə icrasını planlaşdırdığımız layihələr ticari əməkdaşlığımızı genişləndirəcək".

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev qəzetimizə açıqlamasında deyib ki, dünyada baş verən proseslər fonunda Prezident İlham Əliyevlə Avropa Komissiyasının Prezidenti arasında görüşün keçirilməsi çox mühüm əhəmiyyət kəsb edir. Deputatın sözlərinə görə, burada əsas məqam görüşün təşkil edilməsində birmənalı olaraq Avropa İttifaqının öz marağının olmasıdır, çünki Aİ bu gün həm alternativ enerji ilə bağlı, həm də Rusiyaya qarşı tətbiq edilən sanksiyalardan sonra etibarlı tərəfdaş axtarışındadır. Avropa Komissiyasının Prezidentinin də qeyd etdiyi kimi, Azərbaycan etibarlı tərəfdaş olaraq daim özünü müsbət tərəfdən göstərib. Azərbaycanla - sözünün üstündə duran dövlətlə işləmək mühüm əhəmiyyət kəsb edir. Bunu Aİ-nin rəhbərliyi də dəfələrlə qeyd edib.

Arzu Nağıyev deyir ki, görüşdə əsas məqam istər qaz, istər bərpaolunan enerji sahəsində enerji təhlükəsizliyinin təhdidinin qarşısının alınmasında Azərbaycanın iştirakı ilə bağlı olub: "Cənab Prezident də bildirdi ki, bu proseslər getməklə bərabər, Azərbaycan və Aİ-nin yaxınlaşması istiqamətində daha ciddi işlər var".

Deputat Aİ və Azərbaycanla əlaqədar dinləmələr keçiriləcəyini və burada ölkəmizlə bağlı həm iqtisadi, həm siyasi, həm də digər istiqamətlərdə mühüm məsələlərin yer alacağını xatırladıb.

Onun fikrincə, Azərbaycan heç bir siyasi ambisiyalara yol vermədən, heç bir iqtisadi məsələləri siyasətə çevirmədən tərəfdaş kimi Avropanın yanındadır və Avropa İttifaqı ilə birlikdə tərəfdaş qismində gələcək planlarını həyata keçirməyi vacib bilir.

Deputat qeyd edir ki, memorandum hələ başlanğıcdır və gələcəkdə çox ciddi sənədlərin imzalanması gözlənilir. Bu, həm Azərbaycan, həm də Avropa üçün mühüm əhəmiyyət kəsb edir.

### Enerji sahəsində əməkdaşlığın inkişafı hər iki tərəfin maraqlarına cavab verir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşir oğlu qəzetimizə açıqlamasında deyib ki, Avropa İttifaqı Azərbaycanın ən böyük ticarət ortağıdır. Xüsusən, Aİ ilə ölkəmiz arasında enerji sahəsində əməkdaşlıq inkişaf etməkdədir. Deputatın fikrincə, Avropa İttifaqı üçün vahid enerji bazarının stabil şəkildə mövcud olması həmişə prioritetdir.

Elşad Mirbəşir oğlu deyir ki, Azərbaycan bütün tərəfdaşları ilə olduğu kimi, Aİ-yə münasibətdə də səmimi olub, üzərinə götürdüyü öhdəlikləri dəqiqliklə yerinə yetirib. Enerji sahəsində Avropa İttifaqı Azərbaycanı etibarlı tərəfdaşı hesab edir. Deputat düşünür ki, Azərbaycanla Aİ arasında enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi hər iki tərəfin maraqlarına cavab verir: "Cənub qaz dəhlizi" işə düşdükdən sonra Avropanın təbii qaz bazarında Azərbaycanın təsirli rolu müəyyənləşib. "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan Avropanın cənub-şərq bölgələrindən başlayaraq gələcəkdə Mərkəzi Avropaya doğru irəliləyərək bu coğrafiyada təbii qaz təchizatının həyata keçirilməsində çox təsirli rol oynayacaq".

Onun sözlərinə görə, Avropanın neft bazarında da Azərbaycanın rolunun artması müşahidə edilir. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından bu günə qədər Azərbaycanın neft strategiyası Avropa ilə əməkdaşlıq fonunda uğurla həyata keçirilməkdədir. O zaman Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, strateji baxışları sayəsində bu müqavilə imzalandı və Prezident İlham Əliyevin rəhbərliyi dövründə "Əsrin müqaviləsi" üzrə Bakı-Tbilisi-Ceyhan neft kəməri fəaliyyətə başladı. Xüsusilə, 2005-ci ildən Avropanın neft bazarında Azərbaycanın çəkisi artdı.

Elşad Mirbəşir oğlu hesab edir ki, Avropa Komissiyasının Prezidentinin Azərbaycana səfəri fonunda və Azərbaycanla Aİ arasında enerji sahəsində strateji tərəfdaşlıqla bağlı Anlaşma Memorandumunun imzalanması bu sahədə əməkdaşlığın yeni mərhələsidir. O bildirir ki, Azərbaycan milli maraqlarına uyğun olaraq həmişə beynəlxalq əməkdaşlıq platformalarında iştirak edir və təbii ki, tərəfdaşlarından da səmimi münasibət gözləyir. İqtisadi sahədə əməkdaşlığa siyasi elementlərin qatılması Azərbaycanın maraqlarına cavab vermir. Deputat Avropa İttifaqının da sırf iqtisadi-ticari xarakterli əməkdaşlıq mövqeyindən çıxış edərək gələcəkdə enerji sektorunda Azərbaycanla əlaqələrin daha da genişləndirilməsini hədəfləyəcəyinə ümid edir. O, bunun Azərbaycanın milli iqtisadiyyatı üçün əlavə və olduqca böyük resurs olduğunu vurğulayır.

### İmzalanan sənədlər birgə əməkdaşlıqdan xəbər verir

Azərbaycan Prezidentinin də vurğuladığı kimi, imzalanan memorandum gələcək üçün bir növ yol xəritəsidir. Bundan başqa, Avropa İttifaqı ilə yeni saziş üzərində işlər gedir. Görülən işlər, imzalanan sənədlər Aİ ilə ölkəmiz arasında ikitərəfli əlaqələrin daha da genişlənəcəyindən, bu münasibətlərin müxtəlif sahələri əhatə edəcəyindən, birgə əməkdaşlıqdan xəbər verir.

Qeyd edək ki, Azərbaycanla Aİ arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Azərbaycandan Avropa İttifaqına nəql edilən qazın həcmi ikiqat artırılacaq. "Cənub qaz dəhlizi" vasitəsilə ildə nəql edilən 8 milyard kubmetr qazın həcmi isə bir neçə il ərzində 20 milyard kubmetrə çatdırılacaq. Eyni zamanda gələn ildən Avropa İttifaqı ölkələrinə Azərbaycandan 12 milyard kubmetr qaz ötürüləcək. Beləliklə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə ciddi töhfə verəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ermənilərin 83 faizi yaşayış səviyyəsindən narazıdırlar

## Ölkə dərin siyasi-iqtisadi böhran içindədir

Müharibədəki məğlubiyyətdən sonra Azərbaycanla sülh müqaviləsinin imzalanmasını hər cəhdlə uzatmağa çalışan Ermənistanın tənəzzülü bir qədər də sürətli xarakter alıb.

Ölkənin üzləşdiyi çətinliklərin miqyası davamlı şəkildə genişlənməkdədir. Bütün bunlar isə iqtidarın əhali arasında nüfuzunun daha da aşağı düşməsi ilə müşayiət olunmaqdadır.

Ermənistanda iqtisadiyyatın ifrat mərkəzləşdirilməsi, bütün resursların hakimiyyətdəki ailə ilə oliqarxların əlində cəmləşməsi, vergilərin qarətə çevrilməsi nəticəsində ağır bir situasiya yaranıb. Bundan xilas olmaq üçün sadə vətəndaşlar xaricə qaçmağa üstünlük verirlər. Aparılan sorğulardan məlum olub ki, əhalinin 83 faizi yaşayış səviyyəsindən narazıdır. Respondentlərin 20 faizi ölkəni tərk etmək istədiyini bildirib.

ABŞ-ın bu ölkədəki konsulluğundan bildirilib ki, Ermənistanı tərk etmək istəyən insanların sayı dəfələrlə artıb. Konsulluğa 2022-ci ildə Ermənistanı birdəfəlik tərk edib ABŞ-da yaşamaq istəyən 117 mindən çox vətəndaş müraciət edib. Belə bir vaxtda "4rd.am" portalında yer alan xəbərdə qeyd olunur ki, Rusiyada yaşayan ermənilərin sayında daha 668 min nəfər artım müşahidə olunub. Araşdırmalar erməni əhalisinin Rusiyada artmasına səbəb kimi yüksək doğum göstəricilərinin deyil, məhz miqrasiya proseslərinin olduğunu göstərir.

Ermənistan Statistika Komitəsinin hesablamalarına əsasən, son dövrdə bahalaşma daha çox ərzaq məhsullarında qeydə alınıb. Paşinyan hakimiyyətinin isə yaxın vaxtlarda sadalanan problemlərin öhdəsindən gələcəyinə heç bir inam yoxdur. Digər tərəfdən, bu gün Ermənistanın problemi yalnız yoxsulluq və əhalinin ölkəni tərk etməsi ilə bitmir. Hökumətin qarşısında duran əsas vəzifələrdən biri xarici borcların qaytarılmasıdır. Artıq Ermənistanın xarici borcu ümumi daxili məhsul istehsalının 70 faizinə yaxınlaşır. Ölkənin isə bu borcları qaytarmaq imkanları yoxdur.

Vəziyyətin kifayət qədər acınacaqlı olduğuna diqqət çəkən Ermənistan müxalifəti mətbuata verdiyi açıqlamalarda qeyd edir ki, ölkə yanlış siyasətin əsirinə çevrilib. Bu siyasət bir çox sahələrdə olduğu kimi, iqtisadi müstəvidə də ölkənin tənəzzülünü sürətləndirib. Qiymətlər durmadan artır, əhalinin gəlirləri inflyasiyaya adekvat deyil. Mərkəzi Bank hər vəchlə çalışır ki, dövlət büdcəsi dolsun, inflyasiya sabit qalsın. Paşinyan iqtidarı verdiyi vədlərə əməl etmir. Yarıtmaz siyasət nəticəsində isə nə büdcə dolur, nə də qiymət artımı dayanır. Əksinə, Ermənistan iqtisadiyyatı get-gedə daha iflic vəziyyətə düşür.

Bütün bunlarla yanaşı, o da qeyd olunur ki, büdcənin doldurulmasında hakimiyyət əsas yükü kiçik və orta bizneslə məşğul olanların üzərinə qoymağa çalışır. Bu sahədə fəaliyyət göstərənlərin sayı olduqca məhdud olduğuna görə onlar öz bizneslərini dayandırır, başqa əlac olmadıqda isə xarici ölkələrə köçməyə üstünlük verirlər. Beləliklə də ölkə büdcəsinin doldurulmasında ciddi problem yaşanır, eyni zamanda kiçik və orta biznesin sıradan çıxması prosesi daha geniş vüsət alır.

Bu arada Ermənistan hakimiyyəti bütün üsullardan istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Hətta bunu hüquqi cəhətdən rəsmiləşdirməyə və zor gücünə öz xeyrinə məhkəmə qərarlarının çıxarılmasına da nail olur. Lakin bütün bu qadağalara baxmayaraq, sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, orduda vəziyyət təsəvvür ediləndən də qat-qat acınacaqlı, ağır və ciddidir. Ordudakı ədalətsizliyin, aclığın, səfalətin və digər neqativ halların qurbanları fiziki və psixoloji cəhətdən zəif, düşdüyü mühitə uyğunlaşa bilməyən gənc əsgərlərdir. Bu vəziyyətdən yeganə çıxış yolunu isə onlar intiharda, özlərinə müxtəlif bədən xəsarətləri yetirməklə xidmətdən boyun qaçırmaqda görürlər.

"İravunk" qəzeti yazır ki, Ermənistandan hərbi xidmətə çağırılan zabit, Manvel adlı taqım komandiri içki məclisində Azərbaycanla sərhədin dözülməzliyi mövzusunda mübahisə zamanı yerli erməniləri və yezidi kürd hərbçini təhqir edib və nəticədə kütləvi dava düşüb. Nəticədə ciddi xəsarətlər alan bir neçə nəfər İrəvanda hərbi hospitala çatdırılıb. Manvelə isə həkimlər burun və bir neçə qabırğa sınığı diaqnozu qoyublar.

Yuxarıda qeyd olunan problemlər onu deməyə əsas verir ki, Ermənistan cəmiyyəti kifayət qədər ciddi problemlərlə üz-üzədir. Yaranmış vəziyyət isə Ermənistanın bütövlükdə ciddi siyasi və iqtisadi böhrana yuvarlandığından xəbər verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Brüsseldə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 18-ci iclası keçirilib



İyulun 19-da Belçikanın paytaxtı Brüssel şəhərində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovun və Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borrelin həmsədrliyi ilə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 18-ci iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, iclas zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri, xüsusən Azərbaycan ilə Avropa İttifaqı arasında müzakirə edilməkdə olan hərtərəfli sazişin hazırkı vəziyyəti üzrə müzakirələr aparılıb. Hər iki tərəf bu sazişin qısa müddət ərzində yekunlaşmasına tərəfdar olduğunu təsdiq edib.

Daha sonra Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif aspektləri, sektoral əməkdaşlıq, o cümlədən enerji, nəqliyyat, ətraf mühit, iqtisadi, ticarət, insanlararası əlaqələr, sosial məsələlər, habelə kommunikasiya məsələləri müzakirə edilib. Xüsusilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol Avropa İttifaqı tərəfindən diqqətə çatdırılıb. Azərbaycanın etibarlı tərəfdaş olduğu qeyd edilib və bu xüsusda iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti və Avropa Komissiyasının prezidenti tərəfindən imzalanmış Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb. Avropa İttifaqı tərəfi Azərbaycanın təbii qazının təchizat təhlükəsizliyinə və qiymətlərin sabitliyinə töhfə verdiyini bildirib. Eyni zamanda Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın çoxtərəfli platformalarda inkişaf etdirilməsi perspektivləri və bu kontekstdə Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq və Şərq Tərəfdaşlığının təkmilləşdirilməsi yolları müzakirə edilib.

Gündəliyin digər bəndi üzrə regional məsələlərə diqqət yönəldilib. Bu xüsusda Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi ətrafında geniş müzakirə aparılıb. Nazir Ceyhun Bayramov normallaşma prosesinin hazırkı vəziyyətini, Azərbaycan tərəfindən göstərilən yanaşma və baxışı diqqətə çatdırıb. Sülh sazişinin imzalanması, bu xüsusda Azərbaycanın sistemli və strukturlu yanaşmanın tərəfdarı olduğu qeyd edilib. Sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması, eyni zamanda Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi sahəsində Azərbaycanın mövqeyi diqqətə çatdırılıb.

Nazir xüsusilə münaqişədən sonrakı bərpa işləri barədə məlumat verib. Cari iclasın əlamətdar tarixi günə, ilk dəfə öz yurdlarından qovulmuş məcburi köçkünlərin Zəngilanın Ağalı kəndinə qayıdışına təsadüf etdiyini vurğulayıb. Nazir həmçinin münaqişədən sonrakı bərpa və quruculuq işləri kontekstində Azərbaycan ərazilərinin kütləvi şəkildə minalardan çirklənməsi məsələlərinə diqqət çəkib, bunun məcburi köçkünlərin tezliklə qayıdışına ciddi əngəl olduğunu, Azərbaycan mülki şəxslərinin mütəmadi əsasda baş verən partlayışlar nəticəsində həlak olduğunu, yaralandığını tərəf müqabillərinin diqqətinə çatdırıb. Ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana yardımın və əməkdaşlığın əhəmiyyət daşıdığı qeyd olunub.

Görüş zamanı Azərbaycan-Avropa İttifaqı gündəliyinin digər məsələləri, o cümlədən demokratiya, insan hüquqları, qanunun aliliyi sahəsində əməkdaşlıq və bu istiqamətdə Azərbaycanda atılan addımlar və islahatlar barədə məlumat verildi, gündəlikdə duran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İclasın sonunda Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cosep Borrel mətbuat açıqlamaları ilə çıxış ediblər.

# ***Ceyhun BAYRAMOV:*** “Ermənistanla münasibətlərin normallaşdırılması üçün ərazi bütövlüyünün qarşılıqlı tanımasından başqa alternativ yoxdur”

Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində bir-birinin ərazi bütövlüyünü, suverenliyini qarşılıqlı tanımağa əsaslanmalıdır. Münasibətlərin normallaşdırılmasında bundan başqa alternativ yoxdur.



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borrell ilə mətbuata birgə bəyanatında deyib.

"Avropa İttifaqı postmünaqişə dövründə mühüm rol oynayır. Bu mənada Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin səylərini və dəstəyini alqışlayırıq. Brüssel görüşləri Cənubi Qafqazda sülh, təhlükəsizlik və rifahın təmin edilməsi üçün çox faydalı idi", - deyə nazir qeyd edib.

Minatəmizləmə prosesinin postmünaqişə dövründə yenidənqurmanın əsas elementi olduğunu deyən C.Bayramov bildirib ki, ölkəmizin işğaldan azad olunmuş ərazilərində minatəmizləmə işlərinə daha böyük beynəlxalq yardımın göstərilməsinə ehtiyac var. "Humanitar minatəmizləmə sahəsində göstərilən köməyə və son olaraq 4 milyon avroluq yardım paketinə görə Avropa İttifaqına minnətdarıq", - deyə nazir vurğulayıb.

* * *

Avropa İttifaqı 700-dən çox şirkət ilə ölkəmizdə ən böyük investordur.

"COVID-19 pandemiyasına baxmayaraq, Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşı olaraq qalır. İnvestisiyaların həcmi on milyardlarla dolları ötür. Bizim enerji sahəsindəki əməkdaşlığımız dünən Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen tərəfindən imzalanmış yeni Anlaşma Memorandumu ilə daha da gücləndirildi. Biz strateji əməkdaşlığımızı Avropada ən böyük enerji və infrastruktur layihəsi olan "Cənub qaz dəhlizi" ilə inkişaf etdiririk", - deyə nazir qeyd edib.

# ***Cozep Borrell:*** “Avropa İttifaqı regionda normallaşmanı və sülh istiqamətində səyləri dəstəkləməyə hazırdır”

"Azərbaycan Avropa İttifaqının vacib tərəfdaşıdır. Azərbaycanla əməkdaşlığımız daha intensivləşib".



AZƏRTAC xəbər verir ki, bunu Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borrell Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə mətbuata birgə bəyanatında söyləyib.

"Azərbaycan bizim üçün mühüm tərəfdaşdır. Dünən Bakıda imzalanan Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji əməkdaşlıq barədə Anlaşma Memorandumunu bizə Azərbaycandan qaz idxalının həcmini iki dəfə artırmağa imkan verəcək. Bu, gələcəkdə Azərbaycanla Aİ arasında bərpaolunan enerji sahəsində əməkdaşlığa da yol açacaq.

Hazırda Azərbaycanla yeni tərəfdaşlıq sazişinə dair danışıqların vacib mərhələsindəyik. Bu yeni saziş bizim əməkdaşlığımızı və siyasi dialoqumuzu daha da gücləndirəcək. Avropa İttifaqı Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsini dəstəkləyir", - deyə o bildirib.

C.Borrell həmçinin qeyd edib ki, Avropa İttifaqı Cənubi Qafqazda sülhü, tərəqqini təşviq edən, buna şərait yaradan bütün səyləri dəstəkləyir. "Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında baş tutan görüşü təqdir edirəm. Avropa İttifaqı regionda normallaşmanı və sülh istiqamətində səyləri dəstəkləməyə hazırdır", - deyə Ali Nümayəndə qeyd edib.

# Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndə heyəti İslam Ticarət, Sənaye və Kənd təsərrüfatı Palatasının mötəbər tədbirlərində iştirak etmişdir

17-18 iyul 2022-ci il tarixlərində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti Oman Sultanlığının Maskat şəhərində keçirilmiş İslam Ticarət, Sənaye və Kənd təsərrüfatı Palatasının (ICCIA) Baş Assambleyasının 38-ci iclasında, Direktorlar Şurasının 33-cü iclasında və İcraiyyə Komitəsinin birinci iclasında iştirak etmişdir.



Baş Assambleyanın iclasında əllidən çox islam ölkəsinin ticarət və sənaye palatalarının rəhbərləri, İslam Əməkdaşlıq Təşkilatının və diplomatik korpusun rəsmi nümayəndələri iştirak etmişlər. ASK 2015-ci ildən İCCİA-da Azərbaycanın özəl sektorunu təmsil edir və hazırda ASK-nın prezidenti qurumun Direktorlar Şurasının və İcraiyyə Komitəsinin regional məsuliyyətli üzvüdür.

Tədbir zamanı islam ölkələrində dayanıqlı kənd təssərüfatı və qida təhükəsizliyi üzrə əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə investisiya imkanları, sertifikatlaşdırmanın tanınması məsələləri üzrə müştərək tədbirlərin genişləndirilməsi barədə söz açılmışdır. Bundan başqa, tədbirdə İslam Palatasının üzv qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq standartlara çatdırılması üzrə xüsusi akkreditasiya proqramının qəbulu və icrası üzrə müvafiq qərar qəbul edilmiş, üzv qurumların rəqəmsallaşdırılması və dayanıqlılığının təmin edilməsi üçün müvafiq iki komissiyanın yaradılmasının vacibliyi bildirilmişdir.

Bundan əlavə, toplantı zamanı Rusiya Federasiyasının Tatarıstan və Başqırdıstan respublikalarının ticarət-sənaye palatalarının və Tailand Krallığının biznesə dəstək təşkilatının ICCIA-da assosiativ üzvlüyə qəbul edilməsi, ICCIA Maliyyə Komitəsinin 64-cü və 65-ci hesabatlarının təsdiq olunması, ICCIA-nın Türkiyədə regional ofisinin açılması, halal qida istehsalı və islam ölkələrinə ixracı istiqamətində xüsusi sertifikatlaşma proqramı üzrə əməkdaşlığın genişləndirilməsi, İCCİA-nın hazırkı Baş katibi Şeyx Yusuf Həsən Xələvinin növbəti dörd il müddətinə seçilməsi və digər gündəlikdə duran məsələlər müzakirə olunmuş və mühüm qərarlar qəbul edilmişdir.

ICCIA Direktorlar Şurası və İcraiyyə Komitəsinin iclaslarında çıxışı zamanı ASK prezidenti M.Musayev ölkəmizin ICCIA Direktorlar Şurasının 34-cü iclasına evsahibliyi etməyə hazır olduğunu bildirmişdir. Onun bu təklifi ICCIA prezidenti Abdullah Saleh Kamel və Direktorlar Şurasının üzvləri tərəfindən müsbət qarşılanmışdır, ICCIA Direktorlar Şurasında aparılmış səsvermə zamanı qəbul edilərək iclasın protokoluna daxil edilmişdir.

Eyni zamanda Məmməd Musayev çıxışında cari ilin oktyabr ayının 26-27-də ASK, KOBİA və ICCIA tərəfindən Bakı şəhərində birgə təşkil olunacaq "Dayanıqlı Kənd Təsərrüfatı Forumu"na hazırlıq məsələlərinə toxunmuş, yüksək səviyyədə təşkil ediləcək tədbirə islam ölkələrinin ticarət-sənaye palataları rəhbərlərini, özəl sektorun nümayəndələrini bir daha dəvət etmişdir. ICCIA Direktorlar Şurasının 34-cü iclasının da Bakıda həmin tarixlərdə keçirilməsi ilkin olaraq qərarlaşdırılmışdır.

Tədbirin gedişatı zamanı və sonunda keçirilmiş biznes görüşlərdə, ASK prezidenti Türkiyə, Oman, Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər, Misir, İordaniya, Çad, Marakeş, Cibuti və digər ölkələrin ticarət-sənaye palatalarının rəhbərləri ilə görüşlər keçirmiş, qarşılıqlı faydalı birgə əməkdaşlıq məsələləri müzakirə olunmuş, hazırda ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar, işğaldan azad edilmiş bölgələrdə yenidənqurma işləri barədə məlumat vermiş, ölkəmizdə mövcud investisiya imkanları ilə yaxından tanış olmaq üçün onları Azərbaycana dəvət etmişdir.

***"Azərbaycan"***

# Xarici işlər naziri Ceyhun Bayramov NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşüb

İyulun 19-da Brüssel şəhərinə işgüzar səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov NATO-nun Baş katibi Yens Stoltenberq ilə NATO-nun mənzil-qərargahında görüş keçirib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə NATO-Azərbaycan tərəfdaşlığının hazırkı vəziyyəti və perspektivləri, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-NATO tərəfdaşlığı çərçivəsində əldə edilmiş nəticələrdən məmnunluq ifadə edib. Ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyə töhfələri kontekstində NATO əməliyyatlarında iştirakı məsələsinə toxunub.

Nazir Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bərpa və quruculuq işləri barədə Alyans rəsmisinə məlumat verib. Bu kontekstdə azad edilmiş ərazilərdə kütləvi şəkildə basdırılmış minaların bərpa-quruculuq işlərinə və məcburi köçkünlərin geri qayıtmasına maneə yaratdığı vurğulanıb. Eyni zamanda postmünaqişə mərhələsində Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi çərçivəsində müxtəlif istiqamətlər üzrə Azərbaycan tərəfindən atılan addımlar qeyd edilib və bununla əlaqədar fikir mübadiləsi aparılıb.

NATO-nun Baş katibi Yens Stoltenberq ölkəmizin etibarlı tərəfdaş olduğunu qeyd edərək Azərbaycanın müdafiə islahatları və NATO missiyalarına töhfələrini yüksək qiymətləndirib. Baş katib həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rolu məmnunluqla vurğulayıb.

# Azərbaycanın xarici işlər naziri Brüsseldə Avropa Siyasət Mərkəzində çıxış edib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu gün Belçikanın paytaxtında Avropa İttifaqının ən nüfuzlu beyin mərkəzlərindən biri - Avropa Siyasət Mərkəzində (EPC) çıxış edib.



EPC-nin siyasət məsələləri üzrə baş analitiki Amanda Polun moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycanın xarici işlər naziri Cənubi Qafqazda münaqişədən sonrakı regional vəziyyəti qonaqlara təsvir edib, 44 günlük Vətən müharibəsindən sonra baş vermiş və davam etməkdə olan əsas proseslərdən danışıb. O, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın icrası ilə bağlı işlərin vəziyyəti, Ermənistanla danışıqlar prosesi, o cümlədən sülh sazişi ilə bağlı ətraflı danışıb, həmçinin dövlətlərarası sərhədlərin delimitasiyası məsələlərinə toxunub. Çıxışında regionda həyata keçirilən kommunikasiya layihələrinə xüsusi diqqət yetirilib. Nazir həmçinin Aİ-nin roluna və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin regionumuzun münaqişədən sonrakı kontekstində apardığı aktiv fəaliyyətə toxunub.

Nazirin çıxışından sonra keçirilən sual-cavab sessiyasında regional siyasətin qonaqları maraqlandıran tərəfləri açıqlanıb. Görüş iştirakçıları arasında tanınmış avropalı politoloqlar, jurnalistlər, Avropa Parlamentinin deputatları da olub.

***AZƏRTAC***



**QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR**
***dirçəliş yolundadır***



# İlham Əliyev Böyük qayıdışı başlatdı

İllər idi ki, əllərimiz Tanrıya uzanıqlı qalmışdı. O torpaqlara qayıtmaq üçün Ulu Tanrıya dualar edirdik, yalvarırdıq... Hər il, hər bayram qurbanlar deyirdik.

Hər əlamətdar gündə ürəyimizdə bir niyyətimiz olurdu: "Kaş gələn il bayramımızı Qarabağ torpaqlarında keçirə bilək..." O torpaqlarsa çox uzaq idi. Oralara gedib çıxmaq bir xəyal kimi görünürdü. Bununla yanaşı, bizim xəyal etdiklərimizi onun gerçəkləşdirə biləcəyinə inanırdıq. Yalnız o, Müzəffər Ali Baş Komandan İlham Əliyev vaxtın nə zaman yetişəcəyini, məqamın nə zaman gələcəyini dəqiq bilirdi...

27 sentyabr 2020-ci ildə səhər-səhər xalqın qarşısına çıxıb yumruğunu qəzəblə düyünləyib, vaxtın, zamanın yetişdiyini dedi...

Ona güvənən xalq bir olub arxasında durdu. "Dəmir Yumruğ"a döndü, düşmənə qəzəb püskürdü...

Ali Baş Komandan qurduğu ordu ilə düşmənin üstünə yeridi. Düşmənin zəhri çatladı. Bizdən aldıqlarını, bizim olanı bir-bir geri qaytardı... Gücü, qətiyyəti, dəmir iradəsi, dəmir məntiqi ilə İlham Əliyev düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi...

Ermənilərin 1993-cü ilin yağışlı, soyuq bir payız günündə üç tərəfdən mühasirəyə alıb, on minlərlə əhalisini Araza töküb işğal etdikləri Zəngilanı 27 il sonra 28 oktyabrda müzəffər ordusu ilə azad etdi... Geri qaytardı!

Bir gün ailəsini götürüb birinci özü getdi, düşmənin viran qoyub, xarabazarlığa çevirdiyi Zəngilana. Biz bütün torpaqlarımıza yenidən həyat verəcəyik, quracağıq, yaradacağıq, abadlaşdıracağıq, bu torpaqları cənnətə döndərəcəyik, - dedi. Bu torpağın, bu vətənin sahibi olduğumuzu qurmaqla, yaratmaqla, yol çəkməklə, həyat verməklə dünyaya göstərmiş oldu. Zəngilan rayonunun viran qalmış Ağalı kəndinin bünövrəsini öz əlləri ilə qoydu.

## Ağlaya-ağlaya çıxdıqları Ağalıya gülə-gülə qayıdırlar

Maraqlıdır, görəsən nədən Ağalıdan başlandı bu qayıdış? Zəfərdən sonra Böyük qayıdış üçün nədən Ağalı kəndi seçildi?

Ötən əsrin doxsanlarında ölkəmizdə bir hakimiyyətsizlik, özbaşınalıq, bir xaos hökm sürürdü. Ermənilər Vətənimizi sahibsiz görüb torpaqlarımıza hücum çəkdilər. Yurdumuza sahiblənmək istəyirdilər... Amma ürəklərində bir qorxu, tərəddüd hissi də var idi. Bir gün Vətənin əsl sahibinin qayıdacağını bilirdilər. Viran qoymaqla, sökməklə, dağıtmaqla, yandırmaqla torpağa sahib olmaq mümkün deyil. Mütləq qayıdışa Ağalıdan başlamaqda da bir məntiq var. Bunu düşmənə verilən bir mesaj da hesab etmək olar: "Bu torpağın öz sahibləri var. Bu torpağa onun əbədi və əzəli sahibləri ağalıq edə bilər deməkdir" - ifadəsi yerinə düşürdü. Ağalıdan başlanan bu Böyük qayıdışın bir mənası da budur. Reallıq isə budur ki, ağalılar bu gün 29 il əvvəl göz yaşı, qorxu, həyəcan içində, ölümün pəncəsindən güc-bəla ilə qaçıb xilas olduqları Ağalı kəndinə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə sevincin qanadında gülə-gülə, ümidlə, arzu ilə qayıdırlar.

## İşğala qədərki kənd

İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Yeni Ağalı kəndinə dörd mərhələdə 41 ailənin köçürülməsi nəzərdə tutulub. Artıq 10 ailə bu gecə öz doğma torpaqlarında, tikilmiş evlərində yeni həyatlarına başladılar.

Köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Ağalıya qayıdanlar arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb.

## "Ağıllı kənd"də ağıllı işlər

Bu il mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Yenidən qurulan Ağalıda "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi işlər bu konsepsiyanın tərkib hissələridir.

Kənddə Ailə sağlamlıq mərkəzi, uşaq bağçası, tam orta məktəb də sakinlərin istifadəsində olacaq.

Ağalıya dönən ilk sakinlər arasında təqaüdçü, tələbə, evdar qadınlar olmaqla, mühəndis, satıcı-kassir, gözətçi, bağban, aqronom, müəllim, həkim, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və digər xidmət, səhiyyə, təhsil sahələri üzrə ixtisaslaşmış kadrlar var. Kəndin sakinlərinə peşələrinə uyğun iş yerləri təklif olunub.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

O, vəd vermir. O, düşündüklərini edən, xəyallarımızı gerçəkləşdirə bilən tək, şəriksiz liderdir. Bu gün başlanan Böyük qayıdışın bir gün Xocalıdan keçəcəyinə heç kimdə şübhə olmasın. Görülən uğurlu işlər, əldə olunan nəticələr bu günlərin çox uzaq olmadığından xəbər verir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Bu köç Ağalıya gedir...

İyulun 19-da Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə start verilib.

AZƏRTAC xəbər verir ki, Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsinə həsr edilmiş tədbir Abşeron rayonunun Masazır kəndi ərazisində məcburi köçkünlər üçün salınmış yaşayış kompleksində keçirilib. Məcburi köçkünlərin ilk qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyindən" Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salınıb.

Ağalı sakinlərini yolasalma tədbirindən sonra jurnalistlərin suallarını cavablandıran Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev bütün köç prosesinin dövlət başçısının birbaşa nəzarəti altında olduğunu bildirib. Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun qurulan Ağalı kəndinə 4 mərhələdə köçürüləcək 41 ailənin, təxminən 200 nəfərin hər cür şəraitlə təmin olunacağını vurğulayıb.

Onun sözlərinə görə, Ağalıda məskunlaşacaq sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunacaqlar. Burada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll ediləcək.

Doğma yurda qayıtmağının sevincini AZƏRTAC-la bölüşən Ağalı kənd sakini Habil Abdullayev deyib: "Mən 1975-ci ildə Zəngilan rayonunun Ağalı kəndində anadan olmuşam. 1993-cü ildə rayonumuzun Ermənistan tərəfindən işğalı nəticəsində kənddən köçməli olduq. 30 il işğal altında qalan torpaqlarımız qəhrəman ordumuzun tarixi zəfəri nəticəsində azad edildi. Bu gün doğma kəndimizə qayıtdığımız üçün çox sevinirik. Bu tarixi anları yaşamağımıza səbəb olan şəhidlərimizə Allah rəhmət eləsin. Qəhrəman hərbçilərimizə isə cansağlığı arzulayıram. İnanırıq ki, bütün məcburi köçkünlər ən yaxın zamanlarda öz doğma evlərinə qayıdacaqlar".

Ağalıya köçən digər kənd sakini Qədir Məmmədov doğma yurda qayıtdıqları üçün çox gözəl hisslər yaşadıqlarını bildirib. Qeyd edib ki, bu hissləri ancaq bizim yerimizdə olanlar anlayar. Çünki 30 ilə yaxın müddətdə elimizdən, obamızdan ayrı düşdük. Bu anları yaşamaq olduqca ağır idi. Buna baxmayaraq, tarixi ədalət bərpa olundu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı erməni işğalından azad etdi.

Vətən müharibəsində qazanılan zəfərin məcburi köçkünlər üçün bir ümid olduğunu diqqətə çatdıran sakin deyib: "Biz də həmin ümidli insanlardan biri idik. Həmçinin deyərdim ki, biz xoşbəxt insanlarıq".

İşğaldan azad edilmiş ərazilərdə dövlətimiz tərəfindən davamlı infrastruktur layihələrinin uğurla həyata keçirildiyini xatırladan Q.Məmmədov digər məcburi köçkünlərin də tezliklə öz yurdlarına qayıdacaqlarına inamını ifadə edib. Deyib ki, bu anlar qürur tariximizin ən yaddaqalan hadisələrindəndir.

❖ ❖ ❖

İyirmi doqquz illik həsrətdən sonra Ağalı sakinləri iyulun 19-u günortadan sonra doğma torpaqlarına qovuşublar. Bununla da işğaldan azad edilən Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi başa çatıb. İlk köçürülmə zamanı 10 ailə Ağalıda evlə təmin olunub.



















Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev Zəngilandakı "ağıllı kənd"də Ağalı sakinlərini salamlayıb.

Sonra Ağalı sakinlərinə "Azercell"dən hədiyyələr və "Rahat" marketdən yüz manatlıq kuponlar təqdim edilib.

Daha sonra Ağalı sakinlərinin ailə başçılarına evlərinin açarları verilib. Kənd sakinləri evləri ilə tanış olublar.

Vahid Hacıyev AZƏRTAC-a açıqlamasında söyləyib ki, hazırda Zəngilanda müxtəlif infrastruktur layihələri həyata keçirilir.

O deyib ki, Zəngilanda dəmir yolu və avtomobil yolları tikilir, hava limanı inşa olunur. Hava limanının inşası sentyabrda başa çatacaq. Eyni zamanda meliorativ tədbirlər də davam etdirilir, kənd təsərrüfatı ilə bağlı işlər görülür.

Zəngilanın digər kəndlərinin də layihələrinin hazırlandığını deyən V.Hacıyev rayonda kifayət qədər hərtərəfli bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini və bu tədbirlərin bundan sonra davam etdiriləcəyini bildirib.

O, həmçinin diqqətə çatdırıb: "Ağalı kəndi artıq öz doğma sakinlərini qəbul edir. Evlər, məktəb, uşaq bağçası - burada yaşayış üçün lazım olan bütün infrastruktur hazırdır. Sakinlər üçün iş yerləri mövcuddur. Bundan sonra da sakinlərə bütün zəruri dəstək göstəriləcək".

Böyük qayıdışın ilk iştirakçıları olmaqdan qürur duyduğunu bildirən Ağalı kənd sakini Möhtubbət Səmədov deyib ki, hazırda sevincimizin həddi-hüdudu yoxdur. Kənd camaatı ilə birlikdə doğma yurdumuza qayıtmışıq. Bu qayıdışın ardı gələcək, bütün məcburi köçkünlərimizin torpaq həsrəti sona yetəcək.

Kənddə yaradılan şəraitdən razılığını ifadə edən M.Səmədov bildirib: "Otuz il idi sanki yaşamırdım. Bu gündən həyatımı yenidən yaşamağa başlamışam. Bu sevinci bizə yaşadanlara - Ali Baş Komandan, Prezident İlham Əliyev başda olmaqla, ordumuza minnətdaram. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin".

O əlavə edib ki, Ağalı kəndində çox gözəl şərait yaradılıb.

Kənd sakini Vəliyəddin Paşayev: "Zəngilan rayonunun Ağalı kəndində doğulub boya-başa çatmışam. Kəndimizi tərk edəndə 32 yaşım var idi. Uzun illər idi torpaqlarımızın azad olunmasını gözləyirdim. Şükür Allaha, 2020-ci ilin payızında 44 gün ərzində rəşadətli Azərbaycan Ordusu ərazi bütövlüyümüzü bərpa etdi. Əhd etmişdim ki, torpaqlarımız alınanda bərpa işlərində mən də iştirak edəcəyəm. Əhdimə sadiq qaldım. Bir il üç aydır ki, Ağalıda işləyirəm. Buranı ilk dəfə görəndə dəhşətə gəldim. Erməni vandalları kəndimizi xarabalığa çevirmişdilər. İndi isə Ağalı kəndi gülüstana çevrilib".

Ağalı kənd sakini Minə Mirzəyeva bu gün ağalılılar üçün əlamətdar gün olduğunu deyib. O bildirib: "Biz bu gün öz doğma yurd-yuvamıza qovuşduq. Neçə ildir doğma rayonumuzun, kəndimizin həsrətini çəkir, ürəyimizin hər döyüntüsündə uzaqlığın ağrısını hiss edirdik. Ağalı kəndinin sakinləri çox şanslıdırlar. Çünki ilk olaraq onların nisgilinə son qoyuldu".

Kənd sakini Ağalıya qayıtdığı üçün hiss etdiklərini ifadə etməyə söz tapa bilmədiyini deyib. Bu xoşbəxtliyi onlara yaşadan şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edib.

❖ ❖ ❖

Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaradıb. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olunublar. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətlənib və hazırda ardıcıllıqla həyata keçirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da məcburi köçkünlərlə bağlı məsələlərə daim xüsusi həssaslıqla yanaşır, onların problemlərinin həllinə kömək göstərir.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Zəfərə gedən yol

**O gün - 14 iyul 2020-ci il göy üzü tərtəmiz idi... Hava da qaralmaq bilmirdi. Günəş səmanı al-qırmızı rəngə bələmişdi. Sanki kim isə üçrəngli bayrağımızla göyləri "bəzəmişdi". Həmin gün Tovuz rayonuna növbəti dəfə təcavüz edən ermənilərlə döyüşdə xalqımızın qəhrəman oğlu, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq Əhmədov və gizir Yaşar Babayev qəhrəmancasına döyüşərək şəhid olmuşdular. Bəlkə də bu, göy üzünü gözəlləşdirən qəhrəman şəhidlərin ruhu idi...**



Həmin axşam Bakı küçələrində bir izdiham var idi. O gün qəhrəmanlıq tarıximizin, zəfər salnaməmizin başlanğıc günü kimi olduqca qürurverici bir tarixi ehtiva edirdi. Bu, Qarabağda tapdanmış şərəfimizin, ləyaqətimizin geri dönüşünün şanlı başlanğıc tarixidir. O gün Vətən üçün ölümün növbəsinə durmuş oğulların, gözlərini qırpmadan "Ya azadlıq, ya ölüm", "Qarabağ Azərbaycandır!" hayqırtısı ilə düşmənin üzərinə şığımaq istəyən oğulların birlik günü idi. Bir yumruq ətrafında birləşib düşmənə öz həddini bildirməyin, yerini göstərməyin başlanma məqamı idi. 14 iyul şərəfli bir tarixin ilk sətirlərinin yazıldığı məqam idi. Burada bir qədər dayanmaq, tarix deyəndə nə anlamına gəlirik ifadəsinə aydınlıq gətirmək istəyirik. Təbii ki, ilin, ayın bütün günləri tarix deyil. Vaxtdır, zamandır. Gəldi, getdi… Tarix isə illərin, ayların, zamanın yaddaşına öz möhürünü vurub yaşam hüququ almış hadisə və ya hadisələrin başvermə anı, günü, ayı, ilidir…

14 iyul gecəsi 27 sentyabrda açılan sabahın başlanğıc məqamı idi... O gecə əlinə bayraq götürüb küçəyə çıxanlardan bayrağa bükülü gələnlər az olmadı... Vətən sevgisi ən saf, ülvi sevgidir. Təmənnasız sevgidir. Əvəzsizdir. Vətən sevgisi özünü fəda etməyi bacarmaq deməkdir. Onlar Vətəni yaşatmaq naminə öz canlarına "yox" deməyi bacardılar. Onlar Vətənin şərəfini öz canlarından üstün tuta bildilər. Vətənə şərəf gətirdilər, qanları ilə torpağa can verdilər. Xalqımızın ən şərəfli tarixini yazıb şəhidlik zirvəsinə yüksəldilər. Layiq olduğu ucalığa yüksəlmək heç də hamıya nəsib olan xoşbəxtlik deyil. Zirvəyə ucalıb, daim ucaldığı zirvədə qalmaq isə hər kəsə qismət olmur. O, əbədiyaşarlılığı Tanrı yalnız şəhidlərə layiq bilib.

*E.QƏNİYEV,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# Sevən ürəyimiz var idi

Anam gecələr qapımızı açıq qoyur.
Deyir ki, qorxmayın, atanızın ruhu bizi qoruyur…

**O, kənddə doğulmuşdu. Doğulduğu bu kəndin torpağı, daşı ayaqlarını çox əzmiş, çox qanatmışdı. Beləcə böyümüşdü Ağayusif. "Yağ içində böyrək" kimi olmasa da, halal çörəklə boya-başa çatmışdı.**



Evlərində ov tüfəngi var idi. Tez-tez onu əlinə götürüb, nişangahını üzü Qarabağa tərəf tuşlayardı. Dişin-dişinə qıcayıb "gələcəyəm", - deyərdi. Böyüdükcə içindəki qisas hissi ilə bərabər, qəzəbi də aşıb-daşırdı. Artıq əlindəki silah da oyuncaq silah deyildi. Çox mahir bir atıcının silahı idi. Kənddə hamı onun mahir bir atıcı olduğundan danışardı.

Vətən onu bir əsgər kimi yetişdirirdi. Torpağı işğaldan azad etmək üçün mübarizəyə qoşulan bir əsgər kimi… Bir gün Tanrı istədiyini verdi. Silahı ilə üzü düşmənə sarı getdi.

Onun ömürlüyündən, keçdiyi həyat yolundan yazmaq istərkən çox düşündüm. Bu ömrün əvvəli itirilmiş Şuşa ilə başladı, şəhidliyi isə də Şuşanın azad olunduğu gün bitdi... Söhbət xalqımızın qəhrəman oğlu Ağayusif Mübariz oğlu Əliyevdən gedir.

Ağayusif Əliyev 1 sentyabr 1992-ci ildə Ucar rayonunun Bağman kəndində anadan olub. 2009-cu ildə orta məktəbi başa vurub. 2010-cu ildə Tovuz rayonunun Quşqonmaz dağında hərbi xidmətə başlayıb, 2012-ci ildə hərbi qulluğunu başa vurub doğma kəndinə geri dönüb. Öz təsərrüfatında əkin-biçinlə, maldarlıqla məşğul olub.

Ağayusif Əliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzulinin, Hadrutun, Xocavəndin, Şuşanın düşmən işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə rəşadət göstərib, 2020-ci ilin 8 noyabrında Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ağayusif Əliyev hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Ağayusifin yaşadığı küçəni şəhidin gülümsər baxışlı böyük bir plakatı bəzəyir. Şəkildən həyat eşqi ilə dolu, sinəsində arzuları yarımçıq qalmış nakam bir ömrün sevgi dolu dastanını oxumamaq mümkün deyildir. Plakatın yanında ayaq saxlamadan keçmək də mümkün deyil.

Biz Ağayusifin şəkli ilə "həmsöhbət "olanda sarışın, qıvrımsaçlı bir qızcığazın ayaq saxlayıb bizə diqqətlə baxdığını gördük. Onun dodaqları səyriyirdi. Gözlərində yaş parıldayırdı. Ürkək baxışlarla güclə eşidiləcək bir tərzdə, astadan pıçıldadı: "Atamdır.. Çoxdandir evimizə gəlmir. Anam deyir ki, atanız göylərə çəkilib. Anam yatanda qapılarımızı örtmür, deyir ki, qorxmayın, atanızın ruhu bizi qoruyur. Atam gedəndə məni bağrına basıb öpdü. Dedi ki, sən ağlama, mən mütləq qayıdacağam. Amma gəlmədi..."

Balaca qızcığazın yaşla dolu nəzərləri gözlərimdə ilişib qalır. Əyilib arıq əllərindən, tük kimi nazik barmaqlarından yapışıb adını soruşuram. Pıçıltılı, titrək bir səslə Gülbəstə, - deyir. Sonra o, üzünü çevirib "baba, baba" deyərək evlərinə tərəf qaçır.

Gülbəstə bir qədər aralıda olan, çökmüş ovurdlarını saqqal almış, gözləri çuxura düşmüş, qaməti əyilmiş, ağsaçlı bir qocaya çatıb əlindən yapışıb, bizə tərəf qayıdır. Gələn Ağayusifin atası Mübariz kişi idi. Gülbəstə köhnə tanışlar kimi bizi babasına təqdim edir: "Baba atamın dostlarıdır, bizə gəliblər"…

Qəhrəmanımızın atası bizi həyətə dəvət edir. Həyətdə bir-birindən çox da aralı olmayan iki ev var. Mişar daşından tikilmiş, geniş yaraşıqlı evi göstərib Ağayusifin evidir, tifilim dişidırnağı ilə, min bir zəhmətlə tikib, heç ayağını uzadıb içində rahat yaşamadı da… Lənətə gəlsin erməniləri. Lənətə gəlsin bizi bu müharibəyə məcbur edənlər. Vallah uşaqların gözünün içinə baxa bilmirəm. "Atam" - deyib hay-haray salırlar. Yoldaşı gözümün qabağında şam kimi əriyir. Anası dərddən göyüm-göyüm göynəyir. Bacıları sağlamlıqlarını itirib…

Şəhidin xanımı Dostu deyir:

- Mənim təkcə adım Dostu deyil. Mən gerçəkdən şəhidimin dostu, sirdaşı, sirr yoldaşı idim. Kaş keçmişi geri qaytara biləydim, saatlarla bir-birimizin gözlərinə baxdığımız anlar olaydı. Elə orada qalaydıq. 2013-cü ilin aprelində nişanımız, 2014-cü ilin avqust ayında toyumuz oldu. Çox xoşbəxt idik. Təkcə gözlərimiz deyil, ruhumuz da gülürdü. Biz zəngin ailənin uşaqları deyilik. Deyirdik ki, bir komamız, gözəl balalarımız olsun, bəsimizdir. Allah bizə gözəl, qiymətli paylar verdi. Əvvəl Gülbəstə gəldi, sonra Zəhra qızımız sevincimizə sevinc qatdı. Tanrıdan nə istəyirdik verirdi. Ağam deyirdi ki, ən gözəl evi də mən tikəcəm, uşaqlarımız ən gözəl məktəbdə oxuyacaqlar. Şəhidim sözünü tutan kişi idi. Gördüyünüz bu gözəl evi də tikdi. İçində özü yaşamadı...

Noyabrın 10-da Prezident xalqa müraciət edəndə sevincimizin hədd-hüdudu yox idi. Ağayusif Şuşaya getdiklərini demişdi. Amma səssizlik idi. İçim-içimi yeyirdi. Telefonuna zəng çatmırdı. Düşünürdüm ki, yəqin telefonun dalğası tutmur. Yəqin komandirləri telefondan istifadə etməyi qadağan ediblər. Nə bilim, min fikir gəlirdi ağlıma… Amma şəhid olmasını düşünmürdüm. Evdən gülə-gülə yola saldığım Ağayusif bayrağa bükülü qayıtdı. Şəhidlik zirvəsinə yüksəlmişdi.

Ağayusif vətəni düşmən işğalından azad edib ruhunu göylərə, cismini torpağa, Vətəni isə bizlərə əmanət edib bu dünyadan köçdü. Vətənin parçalanmaması, dövlətimizin daha da güclənməsi üçün anasının göz yaşına, ailəsinin duasına sığınıb düşmən üzərinə gedənlərdən oldu. Ağayusif iki gül balasını da vətənə, onun namusçəkən oğullarına tapşırdı.

Gözün arxada qalmasın, ey Vətən oğlu! Övladların etibarlı əllərdədir. İndi onlara, bütün şəhid, qazi balalarına öz doğma övladı kimi baxan, sevən, əzizləyən, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan var.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

# İlk tankçı şəhid



**44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də gizir Cəlal Ağayevdir. O, 1984-cü il dekabrın 4-də Lerik rayonunun Kornədi kəndində anadan olub.**

Cəlalın uşaqlıq illəri doğulduğu kənddə keçib. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılıb və Naxçıvanda yerləşən "N" saylı hərbi hissəyə göndərilib. Cəlalın arzusu hərbçi olmaq idi. Ona görə də bu istiqamətdə təhsilini davam etdirmək qərarına gəlir.

C.Ağayev Aprel döyüşlərində böyük şücaətlər göstərib. Vətən müharibəsi zamanı isə Ağdərə istiqamətində qəhrəmanlıq göstərib, çiynindən qəlpə yarası alsa da, buna əhəmiyyət verməyib, döyüşü davam etdirib.

Ömrünün 17 ilini hərbiyə həsr edən Cəlal 7 il Goranboyda olub, sonra Tərtərə ezam edilib. Bu müddət ərzində 13 fəxri fərman, Silahlı Qüvvələrimizin 90, 95, 100 illiyi ilə əlaqədar yubiley medalları və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib.

2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsinə tank komandiri Cəlal Ağayev də qatılır. Sentyabrın 27-də döyüş tapşırığı alan qəhrəman gizir tankı ilə düşmən səngərini keçib, onlarca ermənini məhv edir. Həmin döyüşdə Cəlal Ağayevin tankı düşmən tərəfindən vurulur. Cəlal bu dəfə avtomatı ilə cəsarətlə döyüşür və Suqovuşanda qəhrəmancasına şəhid olur. Şəhidin nəşi doğulub, boya-başa çatdığı Lerik rayonunun Kornədi kəndinə gətirilir və torpağa tapşırılır.

O, ailəli idi, Nazənin və Sadiq adlı iki övladını xalqımıza əmanət saxlayır.

Atası Ağaverdi Ağayevin sözlərinə görə, Cəlal Aprel döyüşlərində böyük şücaətlər göstərib: "O, Vətən müharibəsi başlanan ilk gündən birinci olaraq cəbhəyə gedənlərdən idi. Cəlal mexanik vəzifəsində taqım komandirinin müavini idi. Döyüş yoldaşlarının dediyinə görə, ilk şəhidi də döyüş bölgəsindən çıxaran o olub".

Həyat yoldaşı Gülnarə Ağayeva deyir ki, şəhidimiz evdə hərbi əməliyyatlarla bağlı heç nə danışmırdı. Müharibə başlayanda da Tərtərdə məskunlaşan ailəsini heç yerə göndərməmişdi: "Axırıncı dəfə bizimlə sentyabrın 28-i danışdı. Mənə iki dəfə zəng etdi. Uşaqları soruşdu, çox narahat idi. Özüm də tez-tez onu yığmırdım. Fikri uşaqlardaydı, ancaq mənə demədi ki, hara gedim. Bilmirdim ki, mən Bakıyamı, yoxsa rayonamı gedim? Bu sualı ona verə bilmirdim. Görürdüm ki, pis olur. Sentyabrın 29-u şəhid oldu. Yaxında olsam da, ona əlim çatmadı. Ağdərə Tərtərə yaxın rayondur. Ancaq mən şəhid olsaydım, Cəlal özünü mənə çatdırardı. Mən çatdıra bilmədim..."

Cəlal Ağayev Prezident İlham Əliyevin sərəncamlarına əsasən, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

● Vətən sizə oğul deyib...

# Oğulları ilə çiyin-çiyinə döyüşmüş qazi

**2020-ci ilin 27 sentyabr tarixi Azərbaycan xalqının yaddaşında uzun illər zəfərin başlanğıc günü kimi qalacaq. Həmin gündən başlayan 44 günlük haqq savaşımız bizi böyük qələbəyə qovuşdurdu.**



Doğma torpaqlarımız uğrunda son damla qanına qədər vuruşmağa qərar verən və bu amalla döyüşlərə atılanlar arasında Müşfiq Orucov da var idi. O, hərbçi kimi təqaüdə çıxsa da, Vətən müharibəsi başlayanda evdə otura bilmədi. Könüllü olaraq orduya yazıldı və hərbi təcrübəsinə arxalanaraq döyüşlərə atıldı. Tabor komandiri kimi Füzuli istiqamətində gedən döyüşlərdə şücaət göstərdi. Füzuli-Hadrut bölgələrində şərəfli döyüş yolu keçən Müşfiq Orucov oktyabr ayının 13-də Aşağı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlər zamanı agır yaralandı və hospitala yerləşdirildi.

Qeyd edək ki, Müşfiqgil ailədə dörd qardaş olublar. Ailənin böyük oğlu baş leytenant Mikayıl Orucov Birinci Qarabağ müharibəsi veteranıdır.

İgid qazimizin atası Fərhad Orucov və anası Sənubər Orucova söz düşəndə deyirlər ki, oğul düşmən çəpəridir: "Biz də oğlanlarımızı məhz düşmənə sipər olsun deyə böyütdük. Hətta nəvələrimizi də bu ruhda tərbiyə etdik. Çünki torpaqlarımız qəhrəman oğullarımızın sayəsində Vətən olur. Ölkəmizin əldə etdiyi böyük zəfər də məhz qəhrəman, vətənpərvər oğulların hesabına qazanıldı. Çox böyük qürur hissi keçiririk ki, bu zəfərdə bizim övladımızın da payı var. Oğlumuz Müşfiq bu müqəddəs yolda öz sağlamlığını itirsə də, el-obasına, evinə üzüağ, alnıaçıq döndü. Müşfiqin nəinki özü, hətta övladları Urfan və Nurlan da topaqlarımızın düşmən tapdağından azad olunması uğrunda rəşadətlə döyüşdülər. Onlar Vətən, xalq qarşısında olan mənəvi borclarını ləyaqətlə yerinə yetirdilər. Valideyn üçün bundan böyük xoşbəxtlik ola bilməz".

Müşfiq Orucov iki oğul, bir qız atasıdır. Oğlanları Vətən müharibəsində ataları ilə çiyin-çiyinə vuruşublar. Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə fəal iştirak ediblər. Təəssüf ki, mayor Müşfiq Orucovun ömür-gün yoldaşı Şəlalə xanımın vaxtsız vəfatı ailəyə zərbə oldu. Müşfiq Orucov deyir ki, döyüşə gedəndə həyat yoldaşı ona qələbə ilə qayıtmağı arzulamışdı: "Belə də oldu. Yaralı gəlsəm də, qələbə ilə qayıtdım. Amma... Xəstə idi, lakin gümrah görünürdü. Dedilər ki, ağır yaralandığımı eşidəndə həyəcanlanıb, xəstəliyi şiddətlənib. Belə görünür ki, müharibə mənim təkcə sağlamlığımı deyil, övladlarımın anasını da əlimdən aldı".

Prezidentin sərəncamları ilə "Hərbi xidmətlərə görə" və "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edilən mayor ömrünün qalan hissəsini də Vətənə həsr etməyi qarşısına məqsəd qoyub: "Axı böyük qələbənin böyük də quruculuğu olmalıdır. Ulu Dədə-Qorqudun ozan dili ilə desək, torpağı qorumadınsa, əkib-becərməyə, əkib-becərmədinsə, qorumağa dəyməz. Şükürlər olsun ki, bizim igidlərimiz torpağı qorumağı bacardıqları kimi, quruculuğu da bacarırlar. Bundan sonrakı hədəfimiz isə yağı tapdağı altında xarabazara çevrilmiş torpaqlarımızı yenidən gülüstana çevirməkdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Böyük qayıdışın ilk iştirakçılarının məşğulluğu üçün dəstək tədbirləri hazırlanıb

Böyük qayıdışın ilk iştirakçıları olan Zəngilan rayonunun Ağalı kənd sakinlərinin sosial təminatı və firavan yaşaması üçün dəstək tədbirlərinin görülməsinə başlanılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən köçürülən sakinlərin özünüməşğulluğunun təşkili və işlə təminatını həyata keçirmək məqsədilə işlər görülür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və Zəngilan Rayon İcra Hakimiyyəti ilə birgə kəndin 30 sakini özünüməşğulluq proqramına cəlb olunub. Onlar üçün artıq biznes təlimləri təşkil edilib. Təlimlərdə iştirakçılara sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə ətraflı məlumat verilib.

Növbəti mərhələdə isə həmin şəxslər özünüməşğulluq proqramı çərçivəsində avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. iqtisadi sahələr üzrə avadanlıqlarla təmin olunacaqlar. Həmçinin kənd sakinlərinin işlə təminatı məqsədilə Ağalı kəndində fəaliyyət göstərən dövlət müəssisələri və özəl şirkətlər müəyyən olunub, vakansiya tələbləri öyrənilib. Bundan sonra vakansiyaların tələblərinə uyğun namizədlərin işlə təminatı həyata keçiriləcək.

Ağalı kənd sakinlərinin peşə biliklərinin artırılması və məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə növbəti mərhələdə orada peşə hazırlığı kurslarının təşkili və "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə fəaliyyətin həyata keçirilməsi hədəflənib.

## Şəhid ailələri və müharibə əlillərinə yaxın iki ayda daha 500 mənzil və fərdi ev təqdim ediləcək

Bu ilin avqust-sentyabr aylarında daha 500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi planlaşdırılır. Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev KİV-ə müsahibəsində bildirib.

Nazir qeyd edib ki, bu il üçün 1500-dən çox mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi nəzərdə tutulur. Cari ilin ilk 6 ayında artıq 600 mənzil təqdim olunub.

S.Babayev 44 günlük Vətən müharibəsindən sonra 3600, ümumiyyətlə, ötən dövrdə 12500-dən çox mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verildiyini deyib.

"Ümumilikdə postmüharibə dövründə 100 mindən artıq şəhid ailəsi üzvü və müharibə iştirakçısına 193 min sosial dəstək xidməti göstərilib", - deyə nazir bildirib.

## Sahibkarların 1384 layihəsinin maliyyələşdirilməsinə 53,9 milyon manat güzəştli kredit verilib

2022-ci ilin ötən 6 ayı ərzində sahibkarların 1384 layihəsinin maliyyələşdirilməsinə 53,9 milyon manat güzəştli kredit verilib.

AZƏRTAC Sahibkarlığın İnkişafı Fonduna istinadla xəbər verir ki, iqtisadiyyatın sahələri üzrə verilmiş kredit sayının 96,7 faizi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, 2,2 faizi sənaye məhsullarının istehsalı və emalı, 0,3 faizi logistika, 0,8 faizi isə digər sahələrin (turizm tibb və sair) inkişafına yönəldilib. Kreditlərin məbləğ üzrə 75,9 faizi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, 7,4 faizi sənaye məhsullarının istehsalı və emalı, 13 faizi logistika, 3,7 faizi isə digər sahələrin (turizm, tibb və sair) payına düşür.



# Onlar dövlətin qüruru, dövlət isə onların dayağıdır

### Şəhid ailələri, qazilər və müharibə iştirakçılarının qayğılarına diqqət ölkəmizin sosial siyasətinin əsas istiqamətidir

Azərbaycan Prezidenti son illər ərzində şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları ilə saysız görüşlər keçirmişdir. Dövlət başçısı müharibədən əvvəlki bütün görüşlərdə qeyd edirdi ki, nəyin bahasına olursa-olsun öz torpağımızı qaytaracaq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz də əvvəlki illərdə şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq. Bu gün isə qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq.

Ali Baş Komandan İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin xatirəsini əbədiləşdirmək, onların ailə üzvlərinin sosial problemlərinin həlli üçün ölkəmizdə böyük işlər görülür və bu işlərin arası kəsilməyəcək: "Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir. Ancaq bununla yanaşı, əlbəttə ki, bu proses müəyyən müddət davam etdiriləcək. Çünki yaxın gələcəkdə bu problem tamamilə aradan qaldırılacaq".

Bu gün müharibə əlillərinə ən böyük qayğıkeşliyi yenə də Azərbaycan Prezidenti göstərir. Dövlət başçısı hər zaman qaziləri hospitallarda ziyarət etmişdir. Döyüş bölgələrində də ilk maraqlandığı insanlar hərbçilər olmuşlar.

Bu, təbii ki, təsadüfi deyil. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində misilsiz şücaətlər göstərmiş, ölümün üstünə şığımaqdan belə, çəkinməmişdir. Bu qeyri-adi bir müharibə idi. O, nə qədər amansız və sərt olsa da, erməni işğalçıları anladılar ki, onlar bizdən dəfələrlə zəifdirlər. Dünyada belə sürətlə və əzəmətlə döyüşən orduya az-az rast gəlinir.

Böyük zəfərdən sonra isə şəhid ailələri, müharibə əlilləri və iştirakçılarının sosial müdafiəsinə dövlət tam ciddiyyəti ilə yanaşdı, onların qayğılarının həlli üçün zəruri addımlar atdı. Postmüharibə dövründə 100 min unikal fərdə 193 min xidmət göstərilmişdir. Sosial ödənişlər çərçivəsində isə 94 min şəxsə 105 min sosial ödəniş təyin olunmuşdur. Ötən il sosial müavinətlər 60, bu il isə təqaüdlər 60 faiz artırılmışdır.

Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə göstərildi ki, mənzil proqramı ilə bağlı cari il bu kateqoriyadan olan insanlara 600 mənzil artıq təqdim edilmişdir. Növbəti iki ay ərzində daha 500 mənzil və fərdi evin inşası planlaşdırılır. Qeyd etmək lazımdır ki, evlərin bölgüsü Bakı, Sumqayıt və Abşeron ərazisindəki əsas kontingent olan şəhid ailələrinin və müharibə əlillərinin mənzil təminatını yekunlaşdırmaq məqsədinə xidmət edir. Bu iş yalnız bir neçə bölgə üçün aparılmır, əksinə, kompleks şəkildə digər regionlarımızda və böyük şəhərlərimizdə də davam edir.

Azərbaycan dövlətinin diqqət yetirdiyi sahələrdən biri də əhalinin, o cümlədən qazilərin və müharibə iştirakçılarının və onların ailə üzvlərinin məşğulluğunun təmin olunmasıdır. Aktiv məşğulluq proqramına cəlb olunmaları üçün imkanları dəyərləndirilmiş 8 min nəfər özünüməşğulluq proqramlarına cəlb edilmişdir. İşədüzəldilmə proqramı üzrə isə 5400 müharibə əlili və veteranı münasib işlə təmin olunmuşdur.

Bundan əlavə, 11 min müharibə əlili və veteranı sosial-psixoloji dəstək və reabilitasiya proqramlarına cəlb olunmuş, onlara 21 min reabilitasiya vasitəsi təqdim edilmişdir. Ən vacibi isə müharibə iştirakçılarından 200 nəfərinin ən yüksək texnologiyalı dördüncü nəsil müasir protezlərlə təchiz olunmasıdır. Qeyd edək ki, daha öncəki dövrdə Qarabağ müharibəsi əlillərindən 130 nəfər bu protezlərlə təmin edilmişdir. Yəni son il yarımda bu cür protezlərlə təchiz edilən hərbçilərimizin sayı 330-a çatmışdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## ARDNF-nin neft və qaz sazişlərindən 10,3 milyard manat gəliri olub

Cari ilin ilk yarısında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 10 milyard 369,2 milyon manat olub.

ARDNF-dan bildirilib ki, mənfəət neftinin və qazın satışından 9 milyard 588,6 milyon manat təşkil edib. Bonus ödənişləri 768,7 milyon manat, tranzit gəlirləri 7,2 milyon manat, akrhesabı ödənişlər isə 4,7 milyon manat təşkil edib.

## İqtisadiyyat Nazirliyi yanında İctimai Şura və Dövlət Vergi Xidməti arasında görüş keçirilib

Vergi qanunvericiliyinə ediləcək dəyişikliklərin sahibkarların maraqlarını təmsil edən ictimai birliklərlə birgə müzakirə çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) və Nazirlik yanında İctimai Şura arasında görüş keçirilib.

Görüşdə DVX-nin Vergi Siyasəti baş idarəsinin rəisi Nicat İmanov "Növbəti ilin büdcə vergi siyasəti çərçivəsində hazırlanmış Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı Qanun layihəsi" mövzusunda təqdimatla çıxış edib.

Qarşılıqlı müzakirə şəraitində keçirilən tədbirdə növbəti il üçün vergi qanunvericiliyində nəzərdə tutulan dəyişikliklərin əsas istiqamətləri ilə yanaşı, ötən dövrlər ərzində aparılmış islahatların müsbət nəticələri barədə də İctimai Şura üzvlərinə ətraflı məlumat verilib. Nicat İmanov dəyişikliklərin əsas istiqamətlərindən olan investisiya mühitinin, eləcə də yerli istehsalın təşviqi üçün vergi yükünün azaldılması məqsədilə işğaldan azad edilmiş ərazilərimizdə, həmçinin aqrar emal sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinə vergi təşviqlərinin verilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Görüş iştirakçılarına dəyişikliklər paketində sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin qorunması, habelə bir sıra inzibatçılıq müddəalarının dəyişdirilməsi kimi istiqamətlər barədə də məlumat verilib.

Görüş iştirakçılarının bir sıra məsələlərin müzakirəsinin növbəti görüş zamanı davam etdirilməsi təklifi DVX nümayəndələri tərəfindən müsbət qarşılanıb.

Gələcəkdə müzakirələrin effektivliyinin daha da artırılması üçün görüşlərin müvafiq fəaliyyət sahələri üzrə işçi qrup çərçivəsində keçirilməsi təklif edilib.

## İlin birinci yarısında 16 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib

Cari ilin birinci yarısında "Startap" şəhadətnaməsinin verilməsi üçün 46 mikro və kiçik sahibkar İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edib.

Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə təsdiq olunmuş "Startapın müəyyən olunması meyarları"na əsasən, KOBİA-da yaradılmış Ekspertlər Şurası tərəfindən 16 mikro sahibkara şəhadətnamə verilib. "Startap" şəhadətnaməsi kənd təsərrüfatı, aqrar biznes, mobil tətbiq, fintek, onlayn platforma, innovativ həlləri özündə ehtiva edən istehsal sahələri, elektron ticarət layihələri üçün təqdim edilib.

Ümumilikdə isə indiyədək 44 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.

"Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.

# Dövlət Statistika Komitəsi xəbər verir



## 63,3 milyard manatlıqdan çox ÜDM istehsal edilmişdir

İlin ilk yarısında ölkə üzrə 63 milyard 364,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,2 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,2, qeyri neft-qaz sektorunda 9,6 faiz artmışdır.

ÜDM istehsalının 53,3 faizi sənaye, 7,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,8 faizi tikinti, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi informasiya və rabitə sahələrinin, 14,5 faizi digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,6 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 6304,9 manata bərabər olmuşdur.

## Əsas kapitala 6,2 milyard manatdan çox vəsait yönəldilmişdir

İlin əvvəlindən ötən 6 ay ərzində əsas kapitala 6 milyard 299,6 milyon manat, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çox vəsait yönəldilmişdir.

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 20,7 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 18,5 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 60 faizi məhsul istehsalı və 33,8 faizi xidmət sahələrinə, 6,2 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 4 milyard 693,3 milyon manatını və ya 74,5 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 72,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 11,5 faiz artmışdır

Yanvar-iyun aylarında ölkə üzrə 42,2 milyard manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 0,6, qeyri neft-qaz sektorunda 11,5 faiz artmışdır.

Sənaye məhsullarının 75,7 faizi mədənçıxarma, 20,4 faizi emal, 3,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,2 faiz azalmış, əmtəəlik qaz hasilatı 17,5 faiz artmışdır. Emal sektorunda isə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,8, digər nəqliyyat vasitələrinin istehsalı 2,6, əczaçılıq məhsullarının istehsalı 2,1 dəfə, geyim istehsalı 59, mebel istehsalı 58,4, elektrik avadanlıqlarının istehsalı 53,2, maşın və avadanlıqların istehsalı 48,7, hazır metal məmulatlarının istehsalı 47, tikinti materiallarının istehsalı 33,4, kompüter, elektron və optik məhsulların istehsalı 30,8, metallurgiya sənayesi məhsullarının istehsalı 26, kimya sənayesi məhsullarının istehsalı 20,4, kağız və karton istehsalı 15,3, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 12,9, rezin və plastik kütlə məmulatlarının istehsalı 10,1, qida məhsullarının istehsalı 7,8 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır.

## Xarici ticarətdə 11 milyard dollarlıqdan çox müsbət saldo var

6 ayda Azərbaycan dünyanın 158 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmişdir. 109 ölkəyə məhsul ixrac, 146 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 21 milyard 348,2 milyon dollar təşkil etmişdir. Ticarət dövriyyəsinin 16 milyard 212,6 milyon dollarını (75,9 faizini) ölkədən ixrac, 51 milyard 35,6 milyon dollarını (24,1 faizini) isə idxal məhsullarının dəyəri olmuş, nəticədə 11 milyard 77 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

2021-ci ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 75,5, real ifadədə 10,0 faiz artmışdır. İxrac real ifadədə 17,6 faiz artmış, idxal 3,4 faiz azalmışdır.

Hesabat dövründə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 30,9, real ifadədə 17,5 faiz artaraq 1 milyard 188,1 milyon dollara çatmışdır.

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 825 manatdır

Cari il iyunun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 28,3 min nəfər və ya 1,7 faiz artaraq 1 milyon 706 min nəfər olmuşdur. Onlardan 903,5 min nəfəri iqtisadiyyatın dövlət, 802,5 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,5 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,5 faizi sənaye, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 faizi tikinti, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,9 faizi maliyyə və sığorta fəaliyyəti, 13,9 faizi iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 14 faiz artaraq 825,3 manata çatmışdır.

◆ Tarixi şəxsiyyətlər



Haqqında yazılanlarda və söylənilənlərdə tarixi həqiqətlər də, mübaliğələr, yanlış yozumlar da var. Adına elə sağlığında əfsanələr qoşulub. Çünki otuz yeddi illik ömrünə düşmənlərinin belə təsdiqlədikləri misilsiz hünər, böyük əməllər sığdırıb. Tarixin ən çox müzakirə edilən, mübahisələrə səbəb olan bu görkəmli şəxsiyyətinin tam adı Əbül-Müzəffər İsmail ibn Heydər əs-Səfəvi yazılır. Amma ondan daha çox Şah İsmayıl, Şah İsmayıl Səfəvi, I İsmayıl, yaxud da Şah İsmayıl Xətai olaraq bəhs edilir. "Xətai" təxəllüsüdür. Elə sağlığında məşhurlaşan, həm əlyazma, həm də şifahi olaraq yayılıb dillər əzbərinə çevrilən əsərlərini bu təxəllüslə qələmə alıbdı...

# Qüdrətli şah, igid sərkərdə, incə ruhlu şair – Şah İsmayıl Xətai

### Səfəvilərin doğma dili Azərbaycan dili olub

Onun əcdadlarını - Səfəviləri türk olaraq tanıtmamaq cəhdləri çox olub. Səfəvi sülaləsi türkmənşəli idi. Bir sıra yerli və əcnəbi alimlər bu barədə təkzibedilməz dəlillərə əsaslanaraq yazıblar. Şərqşünas, türkoloq, tarixçi, akademik Vasili Vladimiroviç Bartold bildirib: "Ərdəbil şeyxləri, şübhəsiz, fars mənşəli deyil, türk mənşəli idilər". Şərqşünas, professor İlya Pavloviç Petruşevski Səfəvilər sülaləsinin əslən Cənubi Azərbaycandan, Ərdəbildən, Səfəviyyə sufi-dərviş təriqətinin şeyxləri olduğunu qeyd edib: "İlk Səfəvi şeyxləri Ərdəbildə yaşayırdı, onların doğma dili Azərbaycan dili idi". İsmayılın ulu babası Şeyx Səfinin fars vilayətlərində də Türk oğlu, Türk Piri kimi tanındığı tarixi mənbələrdən bəllidir.

İsmayılın iyirmi beşinci babası Əbülqasım Həmzənin, on beşinci babası Qızılbörk Firuzun Ərdəbil yaxınlığında, Şeyx-Kəhrəlan kəndindəki məzarları hələ də ziyarətgahdır. Mərkəzi Ərdəbildə Səfəviyyə sufi təriqətinin əsasını qoyan İsmayılın altıncı babası Şeyx Səfiəddin İshaqdır (1252-1334). İsmaylın babası Şeyx Cüneyd və atası Şeyx Heydər Səfəvi təriqətinin rəhbəri olub və hər ikisi cavan yaşlarında öldürülüb. Şeyx Heydər heç atasını görməyib. O, dünyaya gəlməmiş Şeyx Cüneyd qətlə yetirilib. Şeyx Heydər atasının yolu ilə gedib. Elə aqibəti də ona bənzəyib. 1488-ci il iyulun 9-da Təbasaranda Şirvanşah qoşunu ilə döyüşdə Qızılbaşlar məğlub olub. Şeyx Heydər öldürülüb. Onun üç oğlu - Sultan Əli, İbrahim və İsmayıl yalnız atasız qalmayıblar, həm də həyatları üçün təhlükə yaranıb.

Anaları Aləmşah bəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı, Sultan Yaqubun bacısı idi. Şeyx Heydər öldürüldükdən sonra Aləmşah bəyim oğulları ilə erməni monastırı Akdamar qalasında, sonra Şiraz yaxınlığındakı İstəxr qalasında həbsdə olublar. Beş il bu minvalla keçib. Onları Uzun Həsənin nəvəsi Sultan Rüstəm azad edib. Məqsədi xeyirxahlıq deyildi. O da siyasi maraqları üçün Səfəvilərdən istifadə etmək niyyətindəydi. Sultan Əli Sultan Rüstəmin köməyi ilə Ərdəbilə müstəqil hakim kimi dönüb. O, çox gənc olsa da, siyasi zəkası, uzaqgörənliyi sayəsində vəziyyəti düzgün dəyərləndirib. Şeyx Sultan Əli həyatda ikən kiçik qardaşı İsmayıl təriqət şeyxliyinə varis təyin olunub. 1492-ci ildə Şeyx Sultan Əlinin və Sultan Rüstəmin birləşmiş qüvvələrinin qalib gəldiyi döyüşdə Ağqoyunlu hökmdarı Sultan Baysunqur öldürülüb. Sultan Rüstəm əsas rəqibinin məğlubiyyətindən sonra Səfəvilərə qarşı siyasətini dəyişib. Ərdəbil yaxınlığı Şəmsi döyüşündə Şeyx Sultan Əli məğlubiyyətə uğradılaraq qətlə yetirilib.

Sırada Şeyx Heydərin digər oğlanları var idi. İbrahimlə İsmayılın yaşları az olsa da, varlıqlarını hakimiyyətləri üçün təhlükə hesab edənlər onların da məhvinə qərar verdilər. Uzun Həsənin əmisi nəvəsi, Ağqoyunlu dövlətinin sərkərdəsi Eybə Sultanın dəstələri şəhərə daxil oldular. Sufilər İsmayılla İbrahimi Ərdəbildə gizlətdilər. Rəştə, sonra Lahicana, Gilanın Biyepiş vilayətinin hakimi Gərkiyə Mirzə Əlinin yanına apardılar. Tanınmış alim Şəmsəddin Lahici ərəb və fars dillərini öyrətmək, Quranı-Kərimi oxutmaq üçün onların tərbiyəçisi təyin edildi.

Şeyx Heydərin ortancıl oğlu İbrahimin aqibəti tarixin müəmmalarına qarışdı. Onun bir müddət Lahicanda qaldığı, anası üçün darıxdığı, Ərdəbilə dönmək istədiyi mənbələrdə yazılıb. Kiçik qardaşının xəbərdarlığını da dinləməyən İbrahimin qiyafəsi dəyişdirilib, bir nəfərin müşayiəti ilə gizlin Ərdəbilə gedib, anası ilə görüşüb. Bəzi mənbələrin məlumatına görə, İbrahimin bundan sonrakı həyatı müəmmalıdır. Onun Ərdəbildə əcəli ilə öldüyündən də, hələ Gilanda ikən vəfat etdiyini də söyləyənlər olub. İbrahimi düşmənlərinin İsmayıl Gilana sığınmazdan qabaq qətlə yetirdikləri də bildirilir. "Aləmara"da isə onun Şah İsmayılın hakimiyyəti dövründə sağ olduğu, Təbrizdə yaşadığı, hərbi-siyasi hadisələrdə iştirak etdiyi yazılıb. Osmanlı müəllifləri də 1508-ci ildə Ərzincanda osmanlılarla Qızılbaşlar arasında baş vermiş toqquşmadan bəhs edərkən Şah İsmayılın qardaşı İbrahim Mirzənin adını çəkiblər.

### Şahlığa doğru...

Tarix 1499-cu ilində, o isə on iki yaşındaydı. Həmin isti avqust ayının yolçuluğunda İsmayılı tərbiyəçisi və məsləhətçisi olan qızılbaş tayfa başçıları müşayiət edirdi. O, ən yaxınları - Hüseyn bəy Lələ Şamlı, Əbdüləli bəy Dədə, Xadim bəy Xülefa, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Xunuslu və Qarapiri bəy Qacarla qoşun toplamaq üçün gedirdi. Ərdəbilin cənub-qərbinə, Xalxala doğru irəlilədilər. Qışı keçirmək üçün Xəzər dənizi yaxınlığına, Ərçivana gəldilər. 1500-cü ilin yazında Şeyx İsmayıl Ərçivandan Araz çayının şimalındakı dağlıq əraziyə, Göyçə gölünün cənub sahillərinə doğru getdi. Qızılbaşların sıraları getdikcə genişlənirdi. Şeyx İsmayıl Qarabağ, Çuxursəd, Şuragil, Kağızman, Tərcan yolu ilə Ərzincana yetişdi. Ərzincanda keçirilən qızılbaş ağsaqqallarının müşavirəsində Səfəvilərin düşməni Şirvanşah Fərrux Yasarla müharibəyə başlamaq qərarı verildi. Şamlı, rumlu, ustaclı, zülqədər, qacar, təkəli, əfşar, varsaq tayfalarından, Qaradağ sufilərindən ibarət yeddi min qazi toplandı. Şeyx İsmayıl tərəfdarları ilə 1500-cü ilin sonlarında Şirvana hücum etdi. Cabanı döyüşündə məğlub edilən Şirvanşah Fərrux Yasar öldürüldü. Şirvanın şəhərini, qalalarını İsmayıl və qızılbaşlıları tutdular. Şeyx İsmayıl üç gün sonra Şamaxıya qayıtdı. Şəhər əyanları onun pişvazına çıxdılar.

Qışı keçirmək üçün Muğana, Mahmudabada yollandı. Orada xəbər aldı ki, Bakı əhalisi Səfəvilərin nümayəndələrinə itaət etmək istəmir. Bu, qədim, əzəmətli şəhərin sakinləri arxayın görünürdülər. Şirvanın iri şəhərlərindən biri, Xəzər dənizində ticarət mərkəzi sayılmasından çox Bakının fəth edilməz sayılmasına, böyük silah və ərzaq ehtiyatlarına güvənirdilər. Ancaq Qızılbaşların mühasirəsinə uzun müddət tab gətirmədilər. 1501-ci ilin baharında Bakını tutdular.

İsmayıl artıq addım-addım taxta doğru irəliləyirdi. Qoşunu ilə Naxçıvana doğru hərəkətə keçdi. Onun Şirvanşahları məğlub etdiyini eşidən Ağqoyunlu hökmdarı Əlvənd Mirzə özü böyük ordu ilə Təbrizdən Naxçıvana gəldi, hərbi rəisi Məhəmməd Qaracanı isə Gəncə və Qarabağa göndərdi ki, Qızılbaşların Kür çayını keçməsinin qarşısını alsın. Qızılbaşlar Kür çayını keçərək Əlvənd Mirzənin ordusunu məğlub etdilər. Əlvənd Mirzə özü isə Şərur döyüşündə Qızılbaşlara yenildi. Onun 30 minlik ordusu İsmayılın 7 minlik qoşununa üstün gələ bilmədi. 1501-ci ilin payızında İsmayıl qoşunu ilə Təbrizə daxil oldu. O, özünü şah elan etdi. Şah İsmayıl Səfəvilər dövlətinin banisi oldu.

Çox gənc, ancaq olduqca məharətli döyüşçü, bacarıqlı sərkərdə olan Şah İsmayılın şöhrəti aləmə yayıldı. Düşmənləri onun və yolunda hər an ölümə hazır olan qızılbaşlarının qarşısında tab gətirə bilmirdilər. Tabe olmaq istəməyənlərin aqibəti ağır olurdu. 1503-cü il iyunun 21-də Şah İsmayıl Ağqoyunlu hökmdarı Sultan Muradı Həmədan yaxınlığında döyüşdə məğlub etdi. Ağqoyunlu dövləti süquta uğradı.

Çox keçmədi ki, Şah İsmayıl möhtəşəm dövlət qurdu. İran, Azərbaycan, İraq, Şərqi Anadolunu və digər əraziləri əhatə edən Səfəvi dövlətinin gündən-günə güclənməsi Osmanlı sultanlarını təşviş saldı. Bir yandan da Şah İsmayıla rəğbət bəsləyən Anadoludakı türklər itaətsizlik göstərməyə başladılar.

Sultan II Bəyazid Səfəvilər dövlətinə münasibətdə sülh siyasətini seçmişdi. Oğlu Yavuz Sultan Səlimin 1512-ci ildə hakimiyyəti ələ keçirməsi ilə vəziyyət kəskinləşməyə başladı. Şah İsmayılın məsələni sülh yolu ilə həll etmək cəhdinə baxmayaraq, Sultan Səlim 1514-cü il martın 19-da Səfəvi dövlətinə qarşı hərbi yürüşə başladı. 1514-cü il avqustun 23-də Çaldıran çölü qanlı döyüş meydanına çevrildi. 100 minlik Osmanlı ordusu 40 minlik Səfəvi qoşunları ilə vuruşdu. Osmanlıların Avropadan aldıqları 300-dək topu vardı. Bu üstünlüklərini nəzərə alan yaxınlarının Sultan Səlimin qoşununa qarşı gizlin hücuma keçmək təklifini Şah İsmayıl rədd etdi: "Mən karvan basan quldur deyiləm!" - dedi.

Çaldıran döyüşü barədə əsrlər boyu çox yazıldı, danışıldı. Şah İsmayılın və onun topun qarşısına qılıncla gedən qorxmaz, cəsur döyüşçülərinin igidlikləri əfsanələşdi.

### Çaldıran faciəsi

...Çaldıranda qızğın döyüş gedirdi. Şah İsmayıl qüvvətli zərbə ilə topları bir-birinə bağlayan zəncirləri qırıb topu iki yerə ayırdı. Şah düşmənin artilleriyasına hücum çəkdi. Atı büdrəyib yıxıldı. Şah İsmayıla çox oxşayan Sultanəli Mirzə Əfşar özünü irəli atıb haray saldı: "Şah mənəm!" O, şahını əsir düşməkdən qorudu. Yaralı Şah İsmayıl atına mindi. Döyüş meydanından uzaqlaşdı.

Sultan Səlim Çaldıran döyüşündən uzun müddət sonra Şah İsmayıldan qılıncını ona göndərməsini tələb etdi. Şah qılıncı göndərdi. Sultan Səlim dəfələrlə cəhd etsə də, topu kəsə bilmədi. O, şaha məktubunda yazdı: "Sən məni aldadırsan, bu həmin qılınc deyil". Şah Sultana cavab verdi: "Qılınc həmin qılıncdı, qol o qol deyil".

Tarixçilər Çaldıran döyüş meydanında xeyli qadın meyitinin tapıldığını yazıblar. Onlar kişi paltarı geyinib Qızılbaş ərləri ilə birgə vuruşmuş qadınlar idi. Deyilənə görə, Şah İsmayılın həyat yoldaşı Taclı Bəyim döyüşdə əsir düşüb, zinət əşyalarını əsgərlərə verərək qaçıb qurtulub. Onun sonrakı taleyi məlum deyil.

I Sultan Səlim Xoy, Mərənd və Təbriz şəhərlərini işğal etsə də, Səfəvilər paytaxtında çox qala bilmədi. 6 gündən sonra Təbrizi tərk etdi. Apardığı qiymətli qənimətlər arasında Şah İsmayılın tacı, əlbisələri və bəzək əşyaları da vardı.

Çaldıran məğlubiyyətinin sarsıntılarını Şah İsmayıl ömrünün sonunadək unutmadı, bir də heç vaxt ürəkdən gülmədi. Qələmə aldığı şeirlərinə də kədər, qüssə çökdü...

### Söz taxtında...

O, dövlət dili doğma Azərbaycan türkcəsi, paytaxtı Təbriz olan böyük imperiya yaratdı. Dövlət fərmanlarını Azərbaycan dilində imzalayırdı. Hakimiyyətə döyüşərək gələn, çox qanlı vuruş meydanlarında qılınc çalan, Karl Marksın haqqında: "Səfəvilər xanədanının banisi Şah İsmayıl fateh idi. O, on dörd illik hakimiyyəti dövründə on dörd əyalət fəth etmişdi" yazdığı Şah İsmayıl rəiyyətlə rəftarında ədalətli və mülayim olub. Onun dərviş paltarı geyinib məmləkəti gəzib dolaşdığı, xalqın dərd-səri ilə maraqlandığı rəvayət edilir.

Şahlıq səlahiyyətləri ona Azərbaycan milli mədəniyyətinin inkişafına şərait yaratmaq imkanı verdi. Sarayında bir çox istedadlı rəssam, heykəltaraş, xəttat, musiqiçi vardı.

Qanlı döyüşlərdə həm sərkərdə, həm də döyüşçü kimi əvəzsiz idi Şah İsmayıl. Təbi onu şair Xətai edəndə isə:

*Yol daşını yol quşuna*
*Atma, qardaş, kərəm eylə...*

- deyirdi. Bu bir çoxunun iddia etdiyi kimi əməllə söz arasındakı ziddiyyət deyildi, əslində. Balaca uşaq ikən, siyasətin məğzini, mənasını anlamadığı yaşda atasını, qardaşını, ya da qardaşlarını öldürənlər, eləcə də Səfəvilər sülaləsinə son nəfəslərinədək sadiq qalanlar İsmayıla bu yolu seçdilər. Səfəvilərin tərəfdarları onu şah etmək istədilər. İsmayıl şahlığa layiq olduğunu göstərdi. Böyük bir dövlət qurub idarə etdi. Ancaq o könül dünyasında şair idi. Aşiqanə qəzəllər yazırdı:

*Qızıl gül, bağü bustanım, nə dersən?*
*Fəda olsun sənə canım, nə dersən?*

*Qərarü səbrü aramım tükəndi,*
*Kəsildi külli-fərmanım, nə dersən?*

*... Xətai can ilə çün səni sevdi,*
*Sevən ölsünmü, sultanım, nə dersən?*

O, sevgi duyğularını belə səmimi ifadə edirdi.

Bəzən isə "Bir söz" rədifli gəraylısında olduğu kimi şairliyi şahlığına üstün gəlirdi:

*Söz vardır kəsdirər başı,*
*Söz vardır kəsər savaşı...*

Yaxşı təhsil almışdı. Çox mütaliə edirdi. İstedadlı idi. Şah İsmayılın rəssamlıq, xəttatlıq bacarıqları vardı. Səsi gözəl idi. Bərbəd adlanan alətdə musiqi ifa edir, oxuyurdu. Şairlik qabiliyyəti isə hökmdarlığına, sərkərdəliyinə bərabərdi. Şeir yazmağa uşaq yaşlarından başlamışdı. Əsərlərini Azərbaycan türkcəsində, qismən fars və ərəbcə yazırdı. Çətin döyüşlər, mürəkkəb dövlət işləri vaxtının çoxunu alsa da, əruz və heca vəznlərində, epik və lirik janrlarda yazdığı əsərləri ilə Azərbaycan ədəbiyyatında zəngin irs qoyub getdi...

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**

# Ağdamın "Qarabağ" klubu Bakıda İsveçrənin "Sürix" komandasına qalib gəldi

Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasında növbəti qələbəsini qazanıb.



AZƏRTAC xəbər verir ki, turnirin ikinci təsnifat mərhələsinin ilk oyunları çərçivəsində Ağdam təmsilçisi İsveçrənin "Sürix" komandasını qəbul edib.

Tofiq Bəhramov adına Respublika stadionunda oynanılan matç Azərbaycan çempionu "Qarabağ"ın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Ağdam təmsilçisinin heyətində İbrahima Vadji dubl edib, Kadi Borges isə fərqlənib. Rəqib komandanın qollarını Lindrit Kamberi və Mirlind Kryeziu vurublar.

"Qarabağ" birinci təsnifat mərhələsində Polşa "Lex"ini iki oyunun nəticəsinə əsasən mübarizədən kənarlaşdırıb - 0:1;5:1. "Sürix" isə avrokuboklarda mübarizəyə bu mərhələdən başlayacaq.

Cavab oyunu iyulun 27-də İsveçrədə keçiriləcək. "Sürix"i üstələyəcəyi təqdirdə, "Qarabağ" UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsində "Ferentsvaroş" (Macarıstan) - "Slovan" (Bratislava, Slovakiya) cütünün qalibi ilə üz-üzə gələcək.

Əks halda, Azərbaycan təmsilçisi Avropa Liqasının eyni raundunda "Linfild" (Şimali İrlandiya) - "Budyo Qlimt" (Norveç) cütünün məğlub komandası ilə görüşəcək.

# Yetərincə tibbi maska və spirt ehtiyatımız varmı?

İki ildən artıqdır pandemiyaya çevrilən COVID-19 həyatımıza yeni qaydalar gətirdi. Eləcə də pandemiyaya qədər, əsasən, tibb işçilərinin istifadə etdikləri tibbi maska və spirt insanların gündəlik yaşam ehtiyacına çevrilib.

COVID-19-un ölkəmizdə yayıldığı ilk zamanlar tibbi maska və spirtlə təminatda qıtlıq yaransa da, dövlətin çevik müdaxiləsi ilə problem qısa müddətdə həllini tapdı. O zamana qədər daxili bazarda tibbi maskalara tələbat idxalın hesabına ödənilirdisə, qısa müddətdə ölkəmizdə dezinfeksiya və digər vasitələri kütləvi şəkildə istehsal edən müəssisələr fəaliyyətə başladı. Beləliklə də, bu vasitələrin idxalına artıq ehtiyac qalmadı.

Son günlər koronavirusa yoluxanların sayının artması ilə bağlı cəmiyyətdə tibbi maska və spirt ehtiyatımızın kifayət qədər olub-olmaması ilə bağlı narahatlıqlar yaranıb. Görəsən, yoluxmanın açıq-aydın artdığı bu günlərdə vəziyyət daha da kəskinləşərsə, bunun öhdəsindən yerli istehsal ilə gələ biləcəyikmi? Statistika göstərir ki, bu məsələdə problem yoxdur.

Dövlət Statistika Komitəsinin son məlumatına görə, hazırda Azərbaycanda 6,2 milyon tibbi maska ehtiyatı var. Bu ilin yanvar-iyun aylarında 16,8 milyon ədəd maska istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu, 120,9 faiz artım deməkdir.

Koronavirus pandemiyası ilə bağlı əhalinin tibbi spirtə artan tələbatının daha dolğun ödənilməsi üçün Azərbaycanda tibbi spirt istehsalına başlanılıb. Yerli istehsal çərçivəsində gün ərzində 20-25 min litr tibbi spirt istehsal edilir. O, tamamilə yerli xammala əsaslanır və müxtəlif ölçülərdə qablaşdırılır.

Virusun yayılmasının qarşısının alınmasında müstəsna rol oynayan bu vasitələrin düzgün və hədində istifadəsi də çox önəmlidir. Azərbaycanda tibbi maska ilə bağlı maarifləndirmə işlərinin aparılmasına, keçirilən yoxlamalara, zamanında tətbiq olunan cəza tədbirlərinə baxmayaraq, hələ də qoruyucu vasitələrdən düzgün istifadə etməyənlər də var.

Birdəfəlik tibbi maskalardan təkrar istifadə etmək olmaz. İstifadə müddətinin iki saatdan artıq olmaması tövsiyə olunur. Maskanın ağızla təmasda olan hissəsinə toxunulmamalı, çıxarırkən isə iplərinin arxa hissəsindən tutmaq lazımdır. Çıxardıqdan sonra əllər mütləq spirtlə dezinfeksiya edilməli, yaxud sabunla yuyulmalıdır. Adından da göründüyü kimi, birdəfəlik tibbi maskaları dəfələrlə istifadə etmək olmaz.

Koronavirusa yoluxma saylarında artımları nəzərə alaraq, mütəxəssislər vətəndaşlara ehtiyatlı olmağı tövsiyə edir. Sabun, su və ya spirt tərkibli antiseptik vasitə ilə tez-tez əllərimizi yumalı, öskürərkən və ya asqırarkən ağzımızı bükülmüş dirsək və ya salfet parçası ilə örtməyi, daha sonra isə həmin salfet parçasını dərhal bağlı zibil qutusuna atmağı məsləhət görürlər. İnsanların sıx olduğu ictimai yerlərdə ən azı 1 metr fiziki məsafə saxlamalı, telefon, qapı dəstəyi kimi tez-tez toxunulan səthləri müntəzəm olaraq təmizləyib və dezinfeksiya etməliyik. Qapalı məkanları tez-tez havalandırmaq, kütləvi toplaşma hallarından yayınmaq, bunun mümkün olmadığı zaman maskadan istifadə etmək vacibdir. Gücləndirici ("buster") doza ilə peyvəndlənmənin vacibliyini də unutmamalıyıq.

**Ülkər XASPOLADOVA,**
**"Azərbaycan"**

# Plastik tullantılardan gələn təhlükədən qorunun

Azərbaycanda son zamanlar plastik qablaşdırma geniş yayılıb. Ekspertlər də ölkədə polimer qablardan və qablaşdırmadan istifadənin artmasının böyük fəsadları barədə həyəcan təbili çalırlar.

Hazırda hər cür plastik materiallardan qablar hazırlanır. Bəzən onların saxlanma şəraitinə və müddətinə baxılmır. Ona görə də bu qablar insan orqanizmində zərərli dəyişikliklər törədir, bədənin reaksiyası pozulur. Bu da xərçəng, tənəffüs sistemi və allergik xəstəliklərə səbəb olur.

Plastik qablaşdırma tullantıları ətraf mühitin çirkləndirilməsinə də öz təsirini göstərir. 1960-cı illərdə bərk məişət tullantılarının tərkibində plastik tullantıların miqdarı 1 faizə qədər idisə, indi bu göstərici 12 faizdən çoxdur. Unutmayaq ki, plastik tullantılar təbiətdə yüz illər ərzində parçalanmır, miqdarı isə ilbəil artır. Araşdırmalar göstərir ki, bu tullantılar düzgün idarə olunmadığından ətraf mühiti çirkləndirir, kənd təsərrüfatı torpaqlarının dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir və məhsuldarlığın aşağı düşməsinə səbəb olur.

### Tullantılar canlıların ölümünə səbəb olur

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Mehman Nəbiyev deyir ki, plastik qablaşdırma tullantıları ətraf mühiti çirkləndirən əsas faktorlardandır: "Tullantılar ətraf mühiti çirkləndirməklə yanaşı, canlı aləmin, o cümlədən bitkilərin, heyvanların, dəniz bioresurslarının, quşların həyatı üçün təhlükə törədir, onların yaşayış mühitini məhdudlaşdırmaqla ölümünə səbəb olur. Hətta bəzi dəniz canlıları bu tullantıları qida kimi qəbul edərək məhv olur".

Bunların içərisində polietilen torbalar xüsusi yer tutur. Polietilen torbalar çox yüngül çəkili (qalınlığı 15 mikrona qədər olan) və yüngül çəkili (qalınlığı 15-50 mikron olan) olmaqla qruplaşdırılır. Bir dəfə istifadə üçün nəzərdə tutulmuş çox yüngül çəkili polietilen torbalar təbiətə düşdükdən sonra onları geri yığmaq iqtisadi cəhətdən səmərəli olmadığı üçün ətraf mühitin çirklənməsində rolu daha çoxdur.

Mehman Nəbiyev polietilen torbalardan istifadənin azaldılması məqsədilə müəyyən tədbirlərin görüldüyünü bildirib: "Ölkəmizdə həm müasir təcrübə, həm yerli şərait nəzərə alınmaqla birdəfə istifadə üçün nəzərdə tutulmuş plastik məhsullar, eləcə də qalınlığı 15 mikrona qədər olan polietilen torbalar qadağan olunmuş, qalınlığı 15-50 mikron olan nisbətən qalın polietilen torbalardan istifadənin azaldılması məqsədilə bu məhsulların marketlərdə alıcılara ayrıca məhsul kimi satışı ilə bağlı qərar qəbul edilmişdir. Bu qərarların qəbul olunmasında məqsəd ətraf mühitin çirklənməsində daha çox paya malik plastiklərin əvəzində onların alternativlərinin istehsalının və idxalının təşviq olunmasıdır".

### Tullantılara qarşı məqsədyönlü işlər aparılır

Plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin minimuma endirilməsi, onların səmərəli idarə olunması ilə bağlı tədbirlərin görülməsi zəruridir. Son illərdə Azərbaycanda da bu istiqamətdə bir sıra məqsədyönlü işlər aparılıb.

Ölkədə emal və xidmət müəssisələrinin qurulmasına dəstək məqsədilə Prezidentin 2011-ci il 28 dekabr tarixli sərəncamı ilə Balaxanı Sənaye Parkı yaradılıb.

Bundan əlavə, dövlət başçısı İlham Əliyev 2019-cu il fevralın 7-də "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Tədbirlər Planı 2020-ci ildək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışını əhatə edir. Burada sahə üzrə idarəetmənin səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Ekologiyanı bu tullantılardan qorumaq üçün bu məhsullardan istifadəni tədricən azaltmaq, əvəzində alternativ materialdan olan məhsullara üstünlük vermək lazımdır.

Hər birimiz ətraf mühitin mühafizəsi və insanların sağlamlığı məqsədilə polietilen torbaların, plastik qabların alternativlərindən olan şüşə qablardan, parça və kağız torbalardan istifadəyə üstünlük verməliyik. Unutmayaq ki, bu, sağlamlığımızı qorumaq üçün vacibdir.

**Elşən YƏHYAYEV,**
**"Azərbaycan"**

# Məktublar: problemlər, rəylər, təkliflər...






## Piyadaları və sürücüləri təhlükədə qoyan problem aradan qaldırıldı



**Novxanı bağ massivində yaşasam da, iş yerim Sumqayıt Paralimpiya Kompleksinin yanındadır. Dəfələrlə həmin ərazidə avtomobillə piyada vurulurdu. Bu zaman hətta piyadanın həyatını xilas etmək olmurdu. Piyada keçidinin və maşınların hərəkətini tənzimləyən yol nişanının olmaması bu ərazini əməlli-başlı "qan çanağı"na çevirmişdi.**

Bu yaxınlarda şəhər rəhbərliyi ilə ərazidə yaşayan sakinlərin görüşü keçirilirdi. Mənim də iştirak etdiyim görüşdə sakinlər rəhbərlikdən xahiş etdilər ki, problemin həlli üçün tədbir görülsün.

Çox çəkmədi, məsələ həll olundu. Paralimpiya İdman Kompleksinin qarşısında - Niyazi küçəsində piyada keçidi və yol nişanları qoyuldu. Bununla həm piyadalar, həm də sürücülər tez-tez üzləşdikləri real təhlükədən xilas oldular.

*Səməndər SALMANOV,*
*Sumqayıt*

## Tibb işçilərinin "Səliqəli və abad rayon" təşəbbüsünə bütün Qusar qoşulub

**Yay başlayandan Qusarda turistlərin sayı da çoxalıb. Amma dağlar qoynunda yerləşən rayonda çox zaman qonaqların təbiətə biganəliyi müşahidə olunur. Bunu turistlər geri qayıdandan sonra xüsusən rayon mərkəzində antisanitariya vəziyyətinin yaranması da sübut edir.**

İndi Qusar şəhərində həftəlik və günlük iməciliklər keçirilir. Bu işə ilk dəfə Mərkəzi xəstəxananın kollektivi başlayıb. İməciliklərdə kollektivin inzibati işçiləri ilə yanaşı, tibbi personal da iştirak edir. Səhiyyə işçilərinin bu təşəbbüsünə rayonun bütün təşkilatları qoşulub. Həftəsonu iməciliklər "Səliqəli və abad rayon" devizi altında keçirilir.

Biz rayonun yuxarı hissəsində yaşayırıq. Hər yağışdan sonra bizim tərəflər ayaq basılası olmurdu. Yağış özü ilə dağın palçığını və küçələrə atılan zir-zibili biz tərəfə daşıyırdı. Odur ki, qonşular bir yerə yığıldıq, qərara aldıq ki, məhəlləmizdə iməcilik keçirək. İki həftədən sonra ətrafda yaşayanlar da bizə qoşuldular. Bu gün bizim təşəbbüs rayon mərkəzinin böyük hissəsi tərəfindən dəstəklənir. Rayon rəhbərliyi də bu işdə bizə hərtərəfli kömək edir.

*Dilarə ŞIXVERDİYEVA,*
*Qusar*





## Su və kanalizasiya problemimiz var

**Biz - Binəqədi rayonu, Sulutəpə qəsəbəsi, R.Allahverdiyev küçəsi, 16-cı döngənin sakinləri 20 ildən çoxdur ki, burada yaşayırıq. Qaz, elektrik, telefon xətləri dövlət standartlarına uyğun şəkildə çəkilib. Ancaq su və kanalizasiya sarıdan problemlərimiz hələ də qalır.**

Öz hesabımıza çəkilən su xətti standartlara uyğun olmadığından tez-tez ciddi problemlər yaradır. 76 mm-lik köhnə boru ilə çəkilmiş xətt tez-tez partlayır, evlərimizin təməlinə axır, üstəlik, bu zaman evlərə su gəlmədiyindən susuz qalırıq.

Ötən il çoxsaylı müraciətlərdən sonra Binəqədi Rayon Su-Kanal İdarəsi tərəfindən tamam yararsız olan su xəttinin 80 metri plastik boru ilə əvəzləndi. Ancaq problem yenə də qalır. Xüsusən yay gələn kimi köhnə xəttin borusu partlayır.

Problemlərimizdən biri də kanalizasiya xəttinin dözülməz olmasıdır. Hazırda 16-17-ci küçələrin qovşağındakı kanalizasiya xəttinin 25-30 metr hissəsi çöküb. Bu səbəbdən tez-tez daşır və ətrafı üfunət bürüyür. Hətta elə olur ki, çirkli su həyətlərə dolur, xüsusən yayın istisində nəfəs almaq mümkün olmur.

İdarənin rəhbərliyi bu il üçün köhnəlmiş xəttin heç olmasa bir hissəsinin plastik boru ilə əvəzlənəcəyinə söz versə də, hələ xəbər yoxdur. Eşitmişik ki, yaxın günlərdə küçəmiz asfaltlanacaq. Yaxşı olar ki, bundan əvvəl ərazinin su və kanalizasiya xətlərindəki problem aradan qaldırılsın. Əks halda, yağışdan çıxıb yağmura düşərik.

*E.İMAMƏLİYEV*



## Keçilməz "Karvan" yolu

**"Karvan" Sumqayıtın böyük ticarət mərkəzlərindəndir. Üstəlik, bu mərkəzin lap yanında bazar fəaliyyət göstərir. İndi təsəvvür edirsinizmi bu əraziyə gəlib-gedən adamların, minik və yük avtomobillərinin sayını.**

Amma nə olsun, təsəvvür etmək bir yana, lap gözlə görmək nəyi dəyişir ki?! Dəyişsəydi, həmin alış-veriş məkanlarının yerləşdiyi ərazidə günün 12-14 saatı basırıq, tıxac olmazdı. İş o yerə çatıb ki, bu ərazidən keçən 20 Yanvar küçəsi çox vaxt keçilməz olur. Burada nə yol nəzarəti nişanlarına fikir verən var, nə də avtobus dayanacaqlarına məhəl qoyan.

Ümid edirik ki, təkcə həmin ərazidə yaşayanları və ora yola düşənləri yox, bütün sumqayıtlıları rahatsız edən bu problem rəsmi dövlət qəzetində ictimailəşdirildikdən sonra öz həllini tapacaq.

*Bakir MƏMMƏDOV,*
*Sumqayıt*




## "Azəriqaz"dan deyirlər ki, kəndə qazı öz vəsaitinizlə çəkin



**Yaşadığım Qurbanzadə kəndi Goranboyun ən səfalı ərazisində yerləşir. Son illər kəndə yeni yolun çəkilməsi, eləcə də bir sıra digər infrastruktur layihələrinin həyata keçirilməsi kəndi daha da abadlaşdırmışdır.**

Təəssüf ki, belə bir kənddə indiyəcən təbii qaz yoxdur. Halbuki magistral qaz kəməri kəndimizin yaxınlığından keçir. Bu barədə "Azəriqaz"a dəfələrlə müraciət etmişik. Cavabları bu olub ki, gedin qaz borularını öz vəsaitinizlə çəkin. Kənd camaatının isə bu qədər vəsaitə gücü çatmır.

Hörmətli redaksiya! Xahiş edirik, bu işdə bizə kömək edib səsimizi əlaqədar yerlərə çatdırasınız.

*Təranə BABAYEVA,*
*Goranboy rayonu Qurbanzadə kənd sakini*



## AZƏRBAYCAN-a cavab verirlər

## Problemin həlli üçün tədbirlər görülür

**Mədəniyyət Nazirliyinə ünvanladığınız məktuba aidiyyəti üzrə baxılmışdır.**

Bildiririk ki, Goranboy rayonunun Qızılhacılı qəsəbəsindəki mədəniyyət evində yerləşən kitabxananın bir qismi təbii qazdan istifadə etməklə qızdırılır. Həmçinin Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələr üzrə istilik sisteminin bərpası və yenidən qurulması üzrə müvafiq işlər aparılır. Tərəfinizdən qaldırılan məsələnin yaxın zamanlarda həll olunması istiqamətində müvafiq addımlar atılacaqdır.

*Elnur ƏLİYEV,*
*nazirin birinci müavini*

## "Nöqsanların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verilmişdir"

**Qəzetinizdə 165 nömrəli marşrut barədə dərc olunan nöqsanlarla bağlı əməkdaşlarımız tərəfindən adıçəkilən marşruta aid avtobusların fəaliyyəti təhlil edilərək monitorinq aparılmışdır. Monitorinq zamanı qəzetdə qeyd olunan məqamlar öz əksini tapmışdır.**

Belə ki, 165 nömrəli marşrutda 18 ədəd avtobus 6-7 dəqiqə hərəkət intervalı ilə xidmət göstərməsinə baxmayaraq, günün pik saatlarında marşrutun hərəkət sxemi üzrə yollarda, xüsusən Binəqədi şosesində yaranan nəqliyyat sıxlığı avtobuslararası hərəkət intervalında ləngimələrə, eyni zamanda marşrutda avtobusların ümumi dövrünün gecikməsinə səbəb olur. Buna baxmayaraq, adıçəkilən marşrutun istismarçısı olan "Çinar-Trans" MMC-nin məsul şəxsləri ilə məsələ müzakirə edilərək fəaliyyətlərində əsaslı dönüş edərək avtobusların əsaslı təmir olunması və nəqliyyat vasitələrinin iritutumlu avtobuslarla əvəz edilməsi, o cümlədən digər nöqsanların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verilmişdir. Həmçinin mövcud çatışmazlıqlarla bağlı müntəzəm sərnişindaşıma xidməti göstərən hüquqi və fiziki şəxslərə rəsmi xəbərdarlıq məktubu da göndərilmişdir.

*Vüqar MƏMMƏDZADƏ,*
*Bakı Nəqliyyat Agentliyinin şöbə müdiri*

## "Faktlar aşkarlandıqda tədbirlər görülür"

**"Azərbaycan" qəzetinin 7 iyun 2022-ci il tarixli nömrəsində dərc edilmiş "Küçə qəssabları yaşayış məntəqələrindən yığışdırılmalıdır" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli istiqamətində tədbirlərin görülməsi ilə bağlı müraciətinizə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində (bundan sonra - agentlik) aidiyyəti üzrə baxılmışdır.**

Məlumat üçün bildiririk ki, ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir (stasionar, modul və mobil tipli) kəsim məntəqələrinn təşkil olunması, qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması istehlakçıların hüquqlarının müdafiəsi, qida təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərin sistemli və kompleks şəkildə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" 2018-ci il 11 iyun tarixli sərəncam imzalamışdır.

Qeyd olunan sərəncamdan irəli gələrək agentlik qida təhlükəsizliyi tələblərinə sanitar-gigiyenik normalara uyğun olmayan heyvan kəsimi məntəqələrində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə mütəmadi olaraq monitorinqlər keçirir. Monitorinqlər zamanı baytarlıq-sanitariya və gigiyena normalarına cavab verməyən yerlərdə - küçələrdə, yol kənarlarında heyvan kəsimi ilə məşğul olan şəxslərə ciddi xəbərdarlıq edilir və qanunla müəyyən olunmuş qaydada müvafiq tədbirlər həyata keçirilir.

Məlum olduğu kimi, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.3-cü maddəsinə əsasən, insanların həyat və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükənin olması və ya mühüm zərərin vurulması barədə hüquqi və fiziki şəxslərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından yoxlayıcı orqana konkret faktlara əsaslanan rəsmi müraciətlər (məlumatlar) daxil olduqda, habelə kütləvi informasiya vasitələrində məlumatlar yayıldıqda plandankənar yoxlama həyata keçirilir.

Eyni zamanda "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli fərmanına əsasən, Azərbaycan Respublikası ərazisində baytarlıq sahəsində yoxlamalar, sahibkarın fəaliyyətinə tətbiq edilən istehsalın və ya malın satışının dayandırılması, habelə digər məhdudlaşdırıcı tədbirlər yalnız Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin razılığı ilə aparılır.

*Qalib ƏBDÜLƏLİYEV,*
*AQTA-nın şöbə müdiri,*
*respublikanın baş dövlət baytarlıq müfəttişi*

## "Şəkərli diabet xəstələri dövlət büdcəsi vəsaiti hesabına müalicə olunurlar"

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin müşayiət məktubu ilə göndərilmiş "Şəkərli diabet" xəstəliyi olan şəxslərin şəkərsalıcı dərman vasitələri ilə təminatı barədə məktubunuza İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində aidiyyəti üzrə baxılmışdır.**

Nəzərinizə çatdırırıq ki, "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həmin xəstələrin dövlət tibb müəssisələrində müayinəsi və müalicəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

Qeyd edək ki, həmin qanuna uyğun olaraq şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələri, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı, həmçinin həmin vasitələr və preparatlarla təminatı qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 87 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Qeyd olunanlara əsaslanaraq bildiririk ki, "Şəkərli diabet" xəstəliyi olan şəxslərin qeydiyyatda olduqları tibb müəssisələrinə müraciət etməklə onların dərman vasitələri ilə təminatı həyata keçirilir.

*Nurlan QULİYEV,*
*İnzibati İdarəetmə departamentinin rəhbəri*

## Körpünün əsaslı təmiri təmin olunacaq

**"Azərbaycan" qəzeti redaksiyasından rayon icra hakimiyyətinə ünvanlanmış məktuba baxılmışdır.**

Qəzetin 31 mart 2022-ci il tarixli 64 (8943) sayında dərc edilmiş "Kəndimizin körpüyə ehtiyacı var" sərlövhəli məqalədə qeyd olunan rayonun Zeyvə kəndində Qaraçay çayının üzərində quraşdırılmış körpünün qəzalı vəziyyətdə olması ilə bağlı bildiririk ki, problemin aradan qaldırılması ilə bağlı Goranboy Rayon İcra Hakimiyyəti olaraq tərəfimizdən əlaqədar qurumlar qarşısında məsələ qaldırılmış və həmin körpünün əsaslı təmiri Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına daxil edilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Dövlət proqramı çərçivəsində vəsait ayrılacağı təqdirdə körpünün əsaslı təmiri təmin olunacaqdır.

*S.NAZAROV,*
*Goranboy Rayon İcra Hakimiyyəti başçısının*
*birinci müavini*

## "Subartezian quyusunun qazılmasına başlanmışdır"

**Şəmkir rayonunun Yeni yol kənd sakini Vəliyev Polad Sabir oğlu tərəfindən "Azərbaycan" qəzetinin redaksiyasına daxil olmuş müraciətə baxılmışdır.**

Vəliyev Polad Sabir oğlu müraciətində kənddə əkin sahələrinin suvarılmasında olan çətinliyin aradan qaldırılması üçün qazıntısı yarımçıq qalan subartezian quyusunun qazılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Məlumat üçün bildirirəm ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 07 iyul tarixli 2741 nömrəli sərəncamına uyğun olaraq, Təzəkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin ərazisində yerləşən Yeni yol kəndində əkin sahələrinin suvarılması üçün 1 ədəd subartezian quyusunun qazılmasına başlanmışdır.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Şəmkir Suvarma Sistemləri İdarəsinin sorğumuza cavabında həmin subartezian quyusunda son tamamlama işləri aparıldıqdan sonra kənd sakinlərinin istifadəsinə veriləcəyi göstərilmişdir.

*Süleyman ZEYNALLI,*
*Şəmkir Rayon İcra Hakimiyyəti*
*başçısının birinci müavini*

Ambasciata d'Italia
Baku

## ELAN

İTALİYA SƏFİRLİYİ MƏLUMAT VERİR Kİ, SƏFİRLİYİN AŞAĞIDA QEYD EDİLƏN SAYTINDA:

https://ambbaku.esteri.it/ambasciata_baku/it/

İTALİYAYA GİRİŞ VİZALARININ VERİLMƏSİNƏ YARDIMÇI FƏALİYYƏTLƏRİN İCRASI İLƏ BAĞLI XİDMƏTLƏRİN OUTSOURCING ÜZRƏ TENDER MÜƏYYƏN EDİLMƏSİ İLƏ ƏLAQƏDAR MƏLUMAT PAYLAŞILIB.

## AVVISO

QUESTA AMBASCIATA D'ITALIA RENDE NOTO CHE È STATO PUBBLICATO SUL PROPRIO SITO WEB:

https://ambbaku.esteri.it/ambasciata_baku/it/

UN BANDO DI GARA PER L'ESTERNALIZZAZIONE DI SERVIZI RELATIVI ALLO SVOLGIMENTO DI ATTIVITÀ AUSILIARIE AL RILASCIO DEI VISTI DI INGRESSO IN ITALIA.

## NOTICE

THIS EMBASSY OF ITALY INFORMS THAT IT HAS BEEN PUBLISHED ON ITS WEBSITE:

https://ambbaku.esteri.it/ambasciata_baku/it/

A CALL FOR TENDERS FOR THE OUTSOURCING OF SERVICES RELATED TO THE PERFORMANCE OF ACTIVITIES AUXILIARY TO THE ISSUANCE OF ENTRY VISAS IN ITALY.

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.07.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

*Təkrar*

## "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxs

### Şuşa şəhəri Cənub yaşayış zonası-11, Blok-05 və Blok-06, 8 ədəd 3-5 mərtəbəli yaşayış binalarının (avtodayanacaqlarla birgə) və mühəndis qurğularının tikintisi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Açıq tenderin predmeti Şuşa şəhəri Cənub yaşayış zonası-11, Blok-05 (Məhəllə 05) (Yaşayış evi-17, Yaşayış evi-18, Yaşayış evi-19, Yaşayış evi-20), Şuşa şəhəri Cənub yaşayış zonası-11, Blok-06 (Məhəllə 06) (Yaşayış evi-21, Yaşayış evi-22, Yaşayış evi-23, Yaşayış evi-24 3-5 mərtəbəli yaşayış binalarının (avtodayanacaqlarla birgə) və mühəndis qurğularının tikintisi işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Açıq tenderin predmeti haqqında ətraflı məlumat tenderin Əsas şərtlər toplusunda verilir. Maraqlanan təşkilatlar iştirak haqqını ödəyərək yazılı müraciət edir və qeydiyyata alınırlar. Qeydiyyata alındıqdan sonra Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti 24 ünvanından tenderin şərtlər toplusunu (Azərbaycan dilində) əldə edə bilərlər. Əlaqələndirici şəxs: Kərimli Babək Əyyub oğlu, telefon: (+994) 70 203 05 20 (bkarimli@shusha.gov.az)

**Benefisiarın adı: "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxs**
**Benefisiarın VÖEN-i: 8600208181**
**Valyuta: AZN**
**Benefisiarın bankı: "Kapital Bank" ASC-nin Səbail filialı**
**Filialın kodu: 200059**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2XXXX**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ34AIIB380900C9449351435105**
**İştirak haqqı: 1500,00 manat;**

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti 60 bank günü);*
*4. Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminat (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son 3 (üç) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son 3 (üç) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
*9. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*10. Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
*11. İddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
*13. İddiaçı inşa etdyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (iddiaçı ən azı tender predmeti həcmində tikinti işlərini yerinə yetirmiş və istismara qəbul Dövlət Aktı ilə təhvil vermiş olmalıdır);*
*14. Tikinti üzrə fəaliyyət növlərini həyata keçirməyə icazə verən müvafiq lisenziyalara malik olmalıdır;*
*15. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*16. Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

İddiaçılar tender təklifi və təklifin təminatı istisna olmaqla bütün digər sənədləri **09 avqust 2022-ci il saat 15:00-a** qədər Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə iki nüsxədə, əsli və surəti olmaqla müşayiət məktubu ilə birgə) **18 avqust 2022-ci il saat 15:00-a** qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri **19 avqust 2022-ci il saat 15:00-da** Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 24 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### gəmiləri üçün radionaviqasiya avadanlıqlarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 iyul 2022-ci il saat 17:00-dəkdir.

Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### gəmiləri üçün naviqasiya avadanlıqlarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 iyul 2022-ci il saat 17:00-dəkdir.

Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.

***Tender komissiyası***

*Təkrar*

## "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxs

### Şuşa şəhəri Cənub yaşayış zonası-11, Blok-03 və Blok-04, 7 ədəd 3-5 mərtəbəli yaşayış binalarının (avtodayanacaqlarla birgə) tikintisi və abadlıq işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Açıq tenderin predmeti Şuşa şəhəri Cənub yaşayış zonası-11, Blok-03 (Məhəllə 03) (Yaşayış evi-10, Yaşayış evi-11, Yaşayış evi-12, Yaşayış evi-13) və Blok-04 (Məhəllə 04) (Yaşayış evi-14, Yaşayış evi-15, Yaşayış evi-16) 3-5 mərtəbəli yaşayış binalarının (avtodayanacaqlarla birgə) tikintisi və abadlıq işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Açıq tenderin predmeti haqqında ətraflı məlumat tenderin Əsas şərtlər toplusunda verilir. Maraqlanan təşkilatlar iştirak haqqını ödəyərək yazılı müraciət edir və qeydiyyata alınırlar. Qeydiyyata alındıqdan sonra Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 24 ünvanından tenderin şərtlər toplusunu (Azərbaycan dilində) əldə edə bilərlər. Əlaqələndirici şəxs: Kərimli Babək Əyyub oğlu, telefon: (+994) 70 203 05 20 (bkarimli@shusha.gov.az)

**Benefisiarın adı: "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" Publik Hüquqi Şəxs**
**Benefisiarın VÖEN-i: 8600208181**
**Valyuta: AZN**
**Benefisiarın bankı: "Kapital Bank" ASC-nin Səbail filialı**
**Filialın kodu: 200059**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2XXXX**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ34AIIB380900C9449351435105**
**İştirak haqqı: 1500,00 manat**
**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti 60 bank günü);*
*4. Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminat (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son 3 (üç) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son 3 (üç) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
*9. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*10. Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
*11. İddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
*13. İddiaçı inşa etdyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (iddiaçı ən azı tender predmeti həcmində tikinti işlərini yerinə yetirmiş və istismara qəbul Dövlət Aktı ilə təhvil vermiş olmalıdır);*
*14. Tikinti üzrə fəaliyyət növlərini həyata keçirməyə icazə verən müvafiq lisenziyalara malik olmalıdır;*
*15. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
*16. Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

İddiaçılar tender təklifi və təklifin təminatı istisna olmaqla bütün digər sənədləri **09 avqust 2022-ci il saat 15:00-a** qədər Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə iki nüsxədə, əsli və surəti olmaqla müşayiət məktubu ilə birgə) **18 avqust 2022-ci il saat 15:00-a** qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri **19 avqust 2022-ci il saat 15:00-da** Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 24 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Qəzetin daim yenilənən rəsmi internet ünvanı:

## www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslıya qardaşı

**FƏRHAD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Vüqar Əhmədova atası

**RAMİN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanova anası

**İFFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Vüqar Əhmədova atası

**RAMİN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Sumqayıt Yüksək Gərginlikli Elektrik Şəbəkəsinin rəisi Xəndan Əhmədova qardaşı

**QÜDRƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Vüqar Əhmədova atası

**RAMİN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4996
Sifariş 1978
Qiyməti 40 qəpik